

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 251 (8274) ÇƏRŞƏNBƏ, 13 noyabr 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV siyasətinin mərkəzində AZƏRBAYCAN VƏTƏNDAŞI dayanır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda ağacəkmə aksiyasında iştirak ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak ediblər.**

**AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlət başçısına və birinci xanıma Xətai rayonunda Heydər Əliyev Fondu tərəfindən salınacaq yeni park barədə məlumat verərək dedi:**

- Cənab Prezident, bura parkın ən hündür nöqtəsidir. Buradan bütün ərazi görünür. Parkın ərazisi 37,2 hektardır.

**Prezident İlham ƏLİYEV:** Buradan gözəl mənzərə açılır.

**Anar ƏLƏKBƏROV:** Elədir. Mehriban xanımın tapşırığına əsasən biz buraları qoruyub saxlamışıq və çalışırıq ki, tezliklə bu parkı insanların istifadəsinə verək. Bu ərazinin yeni planı nəzərdə tutulub. Burada böyük, özü də sadə bir park olacaq.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Təbii park.

**Prezident İlham ƏLİYEV:** Bəli, təbii.

**Anar ƏLƏKBƏROV:** İnsanların asudə vaxtlarının səmərəli təşkili üçün burada bütün şərait yaradılacaq.

**Prezident İlham ƏLİYEV:** İdman meydançaları da.

**Anar ƏLƏKBƏROV:** Əsasən idman meydançalarına, idman qurğularına üstünlük veriləcək. Burada insanların daha çox təbiət qoynunda idman etmələri üçün xüsusi zolaqlar, velosiped yolları, sadə pikniklər üçün yerlər olacaq. İnsanların vaxtlarını, bayramlarını burada keçirmələri üçün bütün imkanlar yaradılacaq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Burada iaşə obyektləri də olmalıdır ki, vətəndaşlar gələndə onlardan istifadə edə bilsinlər.

**Anar ƏLƏKBƏROV:** Elədir, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Amma əlbəttə ki, bu təbii mənzərə qorunmalıdır. İndi burada yeni ağaclar əkilir.

**Anar ƏLƏKBƏROV:** Bu gün 30 minə yaxın ağac əkiləcək. Sizin dəstəyinizə böyük ehtiyacımız var ki, biz bu parkı salaq və insanların istifadəsinə verək.

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaq.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Suvarma sistemi necə olacaq?

**Anar ƏLƏKBƏROV:** Artıq onu həll edirik. Bu gün ağacları əkirik deyə biz artıq Sizin göstərişinizlə suvarma sistemini də çəkdik. Amma təbii ki, burada əlavə işlər var. İşıqlandırma sistemlərinə yenidən baxılmalıdır. Xüsusi suvarma sistemləri qurulmalıdır. Onu təşkil edəcəyik.

**Prezident İlham ƏLİYEV:** Burada zeytun ağacları da görürəm. Vaxtilə əkilib?

**Anar ƏLƏKBƏROV:** Bəli, vaxtilə burada çoxlu zeytun ağacı olub, məhsul da yığılıb.

**Prezident İlham ƏLİYEV:** İndi də əkmək lazımdır, əsasən zeytun və şam ağacları.

**Anar ƏLƏKBƏROV:** Biz burada Eldar şamına da üstünlük veririk. Əvvəllər burada zeytun ağacları ilə bərabər Eldar şamları da çox idi. Ona görə bu qaydada davam edəcəyik.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkdilər.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial məsələlərinin həllini, onların sağlamlıqlarının qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.

*Ardı 2-ci səh.*

## Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Ölkəmizdə kadr islahatları davam edir. Kadr islahatları ümumi islahatların tərkib hissəsidir. Keçənilki prezident seçkilərindən sonra yeni islahatlar dövrünə start verildi və bu islahatlar davam etdirilir. Sual yarana bilər ki, əgər ölkədə sürətli inkişaf təmin edilirsə, islahatlara ehtiyac varmı? Birmənalı olaraq cavab verə bilərəm ki, bəli, islahatlara ehtiyac var. İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir.

Son 16 il ərzində Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Bu gün biz dünya miqyasında çox böyük hörmətə layiq ölkə kimi öz fəaliyyətimizi aparırıq. Qoşulmama Hərəkatının bu yaxınlarda Bakıda keçirilmiş Zirvə görüşü bunu bir daha təsdiqlədi. Biz artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edirik və üç il ərzində sədrliyi davam etdirəcəyik. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə edilibdir. Yəni bu, onu göstərir ki, dünya birliyinin ən azı üçdəiki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə böyük qiymət verir.

*Ardı 3-cü səh.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə rəsmi "Instagram" səhifəsində Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd edilir: "9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə hər birinizi təbrik edirəm! Qoy üçrəngli bayrağımız müstəqil Azərbaycanın üzərində daim əzəmətlə dalğalansın!

Xalqımıza cansağlığı, səadət, xoş günlər və sevgi, Vətənimizə isə rifah, sülh və tərəqqi arzulayıram!"

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr - Konstitusiya Günü münasibətilə rəsmi "Instagram" səhifəsində Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə qeyd edilir:

"Əziz həmvətənlər!

Sizi Azərbaycan Respublikasının Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, Azərbaycanın uğurlu inkişafı davamlı olsun, ölkəmizdə daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün!"

## Milli Məclisdə dövlətin iqtisadi konstitusiyasının müzakirəsi başlayıb

Ötən həftə Milli Məclisin bütün komitələrində müsbət rəy alan "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin dünən parlamentin plenar iclasında geniş müzakirəsi başlandı.

Baş Nazir Əli Əsədov və hökumət üzvlərinin iştirak etdiyi iclasda çıxış edən Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, gündəliyinə 11 məsələnin daxil edildiyi bugünkü iclas əlamətdar bir günə - Konstitusiya Gününə təsadüf edir. 1995-ci il noyabr ayının 12-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Konstitusiyası qəbul edilib.

### Düşünülmüş siyasət innovativ inkişafı, dövlətə etimadı daha da möhkəmləndirib

Gündəliyin təsdiqindən sonra parlamentin Sədri dövlət büdcəsi haqqında məlumat verərək dedi ki, Prezident İlham Əliyevin uğurlu inkişaf strategiyası 2019-cu ilin ötən dövründə də iqtisadiyyatın yüksəlişini təmin edib.

Ölkənin bütün makroiqtisadi göstəricilərində artım müşahidə olunur. Keçən ilin aprel ayında cənab İlham Əliyevin andiçmə mərasimindəki çıxışında müəyyənləşdirdiyi strateji istiqamətlər üzrə həyata keçirilən islahatlar iqtisadi inkişafa yeni dinamika gətirib. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində, xüsusən vergi və gömrük sistemində islahatlardan sonra bu gün genişmiqyaslı struktur islahatları aparılır, dövlət idarəçiliyinə yeni yanaşmalar tətbiq edilir, o cümlədən gəncləşdirmə siyasəti həyata keçirilir.

*Ardı 5-ci səh.*

## Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi başlayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunun geniş miqyasda əməliyyat təlimi başlayıb.

*Ardı 6-cı səh.*

### Bələdiyyə seçkiləri

## Məzahir PƏNAHOV: "Azərbaycan vətəndaşlarının seçki hüquqlarının qorunması ilə bağlı bütün addımlar atılır"

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-nın müxtəlif istiqamətli irimiqyaslı layihələri ardıcıl və intensiv şəkildə davam edir.

AZƏRTAC xəbər verir ki, MSK-nın maarifləndirmə proqramına əsasən ilk dəfə olaraq seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli mövzusunda beşgünlük regional seminar-müşavirələrə start verilib.

Layihə çərçivəsində noyabrın 12-də Bakı şəhərində "Bulvar hotel"də keçirilən ilk tədbirin açılışında çıxış edən MSK sədri Məzahir Pənahov bildirib ki, Azərbaycan vətəndaşlarının seçki hüquqlarının qorunması ilə bağlı bütün addımlar atılır.

Onun sözlərinə görə, seçkilər zamanı hüquqi narazılıqlarla bağlı dairə seçki komissiyalarına müraciət edilir. "Daha sonra dairə seçki komissiyaları MSK-ya müraciət edir və bununla bağlı MSK müvafiq qərar verir. İddiaçı tərəf qərardan narazı olduqda apelyasiya məhkəmələrinə, onların qərarından narazı qaldıqda isə Ali Məhkəməyə müraciət edir. Yəni bütün bunlar vətəndaşlarımızın ali hüquqlarıdır", - deyə MSK sədri vurğulayıb.

*Ardı 8-ci səh.*

# İLHAM ƏLİYEV siyasətinin mərkəzində AZƏRBAYCAN VƏTƏNDAŞI dayanır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda ağacəkmə aksiyasında iştirak ediblər












*Əvvəli 1-ci səh.*

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var. Bu baxımdan Heydər Əliyev Fondunun "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi xüsusi əhəmiyyət daşıyır.

Aksiyada gənclər, rayon sakinləri, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri fəal iştirak etdilər.

Bakıda və respublikanın müxtəlif rayonlarında ağacəkmə aksiyalarının təşkilini nəzərdə tutan layihə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin aradan qaldırılması istiqamətində mübarizədə birgə fəaliyyətə səsləyir. Layihənin məqsədi, eyni zamanda, insanları nəcib təşəbbüslər ətrafında birləşdirməyə yönəlib. Dövlət bayrağı bayramının qeyd edildiyi günlərdə və 12 noyabr - Konstitusiya Günü ərəfəsində təşkil olunan bu aksiya həm də vətəndaşların ölkə üçün vacib layihə ətrafında birləşməsi ilə yadda qaldı.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağacəkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

Qeyd edək ki, ağac əkilən ərazidə əvvəlcə müvafiq iməcilik təşkil olunub, təmizlik işləri aparılıb.

Aksiya çərçivəsində ağacların əkilməsi, sulanması, ərazinin tullantılardan təmizlənməsi ilə yanaşı, buradakı mövcud ağaclarda quş yuvaları və yem qabları quraşdırılıb.

Tədbir çərçivəsində ərazidə müxtəlif əyləncəli və musiqili proqramlar, yarışlar təşkil olunub.

İştirakçılar aksiyaya qatılmaqdan məmnun qaldıqlarını bildiriblər.




# Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir



*Əvvəli 1-ci səh.*

Eyni zamanda siyasi islahatlar aparılır. Son illərdə demokratiyanın inkişafı istiqamətində, insan haqlarının qorunması işində böyük nailiyyətlər əldə edilib. Həmişə dediyim kimi, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir.

O ki qaldı iqtisadi sahəyə, hesab edirəm ki, Azərbaycanın əldə etdiyi nəticə dünya miqyasında rekord göstəricidir, 15 il ərzində - 2003-2018-ci illərdə bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Bütün digər göstəricilər onu təsdiq edir ki, iqtisadi artım, eyni zamanda, vətəndaşların sosial təminatına da müsbət təsir göstərmişdir. Beləliklə, Azərbaycanda yoxsulluq təxminən 50 faizdən 5 faizə düşmüşdür. Xarici dövlət borcu ən aşağı səviyyədədir, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və bu göstəriciyə görə biz dünya miqyasında doqquzuncu yerdəyik.

Böyük infrastruktur layihələri icra edilib və bu gün ölkəmizdə qazlaşdırmanın səviyyəsi 96 faizdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı dünya miqyasında ikinci yerə layiq görübdür. Bu, çox böyük nailiyyətdir. Yolların tikintisi - 15 ildə 15 min kilometr yol çəkilib, o cümlədən magistral, şəhərlərarası, kənd yolları çəkilib. Digər infrastruktur layihələri, o cümlədən sosial infrastrukturla bağlı layihələr uğurla icra edilib, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib, yenidən qurulub, yaxud da ki, təmir edilib. Yəni əldə edilmiş bütün bu nəticələri sadalamaq üçün saatlarla vaxt lazım olacaq.

Bildirməliyəm ki, texnoloji inkişaf istiqamətində böyük uğurlar əldə edilib. Azərbaycan indi kosmik klubun üzvüdür, üç peykimiz var. Deyə bilərəm ki, bu yaxınlarda çox gərgin yarış nəticəsində Azərbaycan 2022-ci ildə Dünya Astronavtika Konqresinə evsahibliyi edəcək. Məlumat üçün bildirmək istəyirəm ki, bizim rəqiblərimiz Rio-de-Janeyro, Dehli və Sinqapur şəhərləri idi. Yəni bu şəhərlərin nə qədər inkişaf etmiş şəhərlər olması haqqında əlavə sözlərə ehtiyac yoxdur. Azərbaycan bu yarışda da qalib gəldi. Nəyin hesabına? Ona görə ki, dünya miqyasında bizim siyasətimizə çox böyük dəstək var, rəğbət var. Bizim sözümüzlə əməlimiz birdir. Azərbaycan dünya miqyasında özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləyibdir.

Eyni zamanda, sosial islahatlar uğurla aparılır. Yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi də ondan ibarətdir ki, bizim iqtisadi islahatlarımız, o cümlədən sosial sahə böyük diqqətlə əhatə olunur. Bu il 4 milyon 200 mindən çox insan çox geniş sosial paketlə əhatə olunubdur və minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə artmışdır. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox, müavinətlər 2 dəfə artmışdır. Bu il orta əməkhaqqı 35 faiz artmışdır. Mənə bu yaxınlarda verilən statistik məlumata görə, hazırda Azərbaycanda orta əməkhaqqı 723 manat təşkil edir. Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. İlk növbədə ona görə ki, həm maaşlar artacaq, eyni zamanda biz kölgə iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini kölgədən çıxarıb və onları rəsmiləşdirə bilmişik və bu proses davam edəcək. Biz hələ işin başlanğıc mərhələsindəyik. Amma orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir.

Son illərdə energetika, nəqliyyat sahələrində qarşımızda duran bütün vəzifələr icra edildi. Bu vəzifələri icra etmək üçün çox böyük səylər göstərilmişdir. Çox mürəkkəb geosiyasi vəziyyətdə həm Bakı-Tbilisi-Ceyhan, həm də Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri istismara verildi. TANAP kimi tarixi layihə artıq fəaliyyətdədir və "Cənub qaz dəhlizi"nin icrasının yekunlaşmasına, demək olar ki, bir il vaxt qalıbdır. İnşallah, biz bu layihəni də uğurla başa vuracağıq.

Azərbaycanda nəqliyyat infrastrukturu müasirləşir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun son hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünya miqyasında 12-ci yerdədir, hava nəqliyyatının səmərəliliyinə görə isə 11-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir və MDB-də birincidir. Yəni eyni zamanda, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin fəaliyyəti də böyük dərəcədə bizim uğurlu siyasətimizdən asılı idi və bu layihələrə artıq start verildi. Azərbaycan uzunmüddətli formatda bu layihələrdən həm böyük siyasi, həm də iqtisadi dividendlər götürəcək.

Əlbəttə ki, bütün bu müsbət nəticələri qorumaq və onları artırmaq üçün mütləq kadr islahatı da aparılmalıdır. Bu məqsədlə Azərbaycanda hazırda çox ciddi kadr islahatları aparılır. Həm təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, vətənə bağlı olsunlar. Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar. Çünki ölkəmizin nüfuzu artır, imkanları artır. Bizim iştirakımız, razılığımız olmadan regional müstəvidə heç bir təşəbbüs, yaxud da ki, layihə icra edilə bilməz. Əlbəttə, belə olan halda bizə həm maraq artır, həm də ki, bəzi dairələr tərəfindən təzyiqetmə cəhdləri də arta bilər. Düzdür, son 16 ilin təcrübəsi onu göstərir ki, kənardan edilən hər hansı bir təzyiqə Azərbaycan çox böyük məharətlə və ləyaqətlə davam gətirə bilir. Bizə qarşı ünvanlanmış bütün bu oxlara, silahlara tutarlı cavab verə bilmişik. Bu cavabın əsas mahiyyəti ondan ibarətdir ki, xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqil həyatımızın əsas təminatçısıdır. Ancaq yenə də deyirəm, gənclər mütləq məhz vətənpərvərlik ruhunda tərbiyə almalı və təcrübə toplamalıdılar. Ona görə son dövrün kadr islahatlarının məqsədlərindən biri də odur ki, biz gənclərə daha geniş imkanlar yaradaq, geniş meydan verək ki, onlar həm təcrübə toplasınlar, həm də gələcəkdə öz işləri ilə ümumi işimizə töhfə versinlər.

Bu gün kadr islahatlarının yeni dövrüdür. Bu gün bir neçə rayona icra başçıları təyin olunur. Onların bəziləri artıq neçə ildir ki, icra başçısı vəzifəsində işləyirlər, bəziləri bu gün bu məsul vəzifəyə təyin olunurlar. Biz burada da təcrübə ilə yeniliyin sintezini, vəhdətini görürük və bu, uğurlarımızın əsas bazasıdır.

Yeni təyin olunan icra başçılarına mənim sözüm odur ki, siz ilk növbədə vəziyyəti düzgün qiymətləndirməlisiniz, çox ciddi təhlil aparmalısınız, çatışmayan cəhətləri üzə çıxarmalısınız və mövcud olan problemlərin həlli üçün səylərinizi göstərməlisiniz. O problemlər ki həlli mərkəzi icra orqanlarından asılıdır, siz mütləq mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, digər müvafiq qurumlara müraciət etməlisiniz. O məsələləri ki özünüz həll edə bilərsiniz, özünüz də həll etməlisiniz. Başlıca məsələ ondan ibarətdir ki, sizin işinizdə əsas prinsiplər bərqərar olmalıdır. Birincisi, xalqa ləyaqətlə xidmət etməlisiniz. Bu, həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir. Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir.

Yenə də Davos İqtisadi Forumunun hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, hakimiyyətin dəyişikliklərə, islahatlara meyli və əhali tərəfindən rəhbərliyə olan dəstək sahəsində Azərbaycan dünya miqyasında birinci onluğa daxil edilib. Bu dəstək nəyin hesabınadır? Ona görə ki, xalqa xidmət etmək mənim borcumdur və bundan sonra da əsas borcum olaraq qalacaq.

Digər tərəfdən, icra başçıları peşəkar olmalıdırlar, bilikli olmalıdırlar və onlar işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu, onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu, artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən yerli icra orqanları bu məsələyə necə münasibət göstərirlər. Əgər gözlərini yumurlarsa, yaxud da ki, özləri bu çirkin işlərə qarışırlarsa, əlbəttə ki, layiqli cəzalarını da alacaqlar və almalıdırlar. Bir daha vətəndaşlara müraciət etmək istəyirəm, əgər görsəniz ki, rəhbər şəxslər əyri yola gedirlər, mütləq məlumat verin, mütləq xəbər göndərin və biz, əlbəttə ki, bütün siqnalları yoxlayıb düzgün qərar qəbul edəcəyik. O da həqiqətdir ki, bəzən hansısa şəxsi zəmində dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür. Xüsusilə özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır. Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar. Ona görə yerlərdən gələn hər bir siqnala obyektiv baxılacaq və sizin fəaliyyətinizə obyektiv qiymət veriləcək. Ona görə siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda IV Regional İnkişaf Proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bugünə qədər öz həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməlisiniz, reaksiya verməlisiniz və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın.

Ona görə vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmaq, investorları cəlb etmək, rayonların sosial-iqtisadi inkişafını təmin etmək sizin əsas vəzifəniz olmalıdır. Yenə də deyirəm, həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahələrinə dövlət xətti ilə çox böyük dəstək göstərilir. Təsadüfi deyil ki, bu ilin 9 ayının yekunlarına görə qeyri-neft sənayemiz 15 faizdən, kənd təsərrüfatı 7 faizdən çox artıb. Artıq pambıq yığımı mövsümü başa çatır, mənə verilən məlumata görə, bu il biz rekord göstəriciyə nail olmuşuq. Biz keçən ilə nisbətən əkin sahələrini azaltdıq, 132 min hektardan 100 min hektara endirdik, çünki bəzi yerlərdə torpaqlar düzgün seçilməmişdi. Ancaq məhsuldarlıq artdı. Hazırda yığım davam edir və hektardan məhsuldarlıq 27 sentnerə çatıb, keçən il 17 sentner idi. Keçən il biz 132 min hektardan 233 min ton pambıq yığmışdıqsa, bu il 100 min hektardan artıq 270 min tondan çox pambıq yığmışıq. Mən təkcə pambığı deyirəm. İndi taxılçılıqda da böyük irəliləyiş var. Ümumi göstərici hektardan 32 sentnerə çatıb. Bu, çox yaxşı göstəricidir. Daha da artacaq. Meyvəçilikdə, fındıqçılıqda da məhsuldarlıq artır. Yeni kənd təsərrüfatı sahəsində dövlət xətti ilə çox böyük işlər görülür. Siz də öz dəstəyinizi verməlisiniz və sahibkarlara diqqət göstərməlisiniz, onları incitməməlisiniz. Əgər hansısa sahibkar vəsait qoymaq, hansısa iş görmək istəyirsə, birinci olaraq siz ona dəstək verməlisiniz. Bəzi hallarda sahibkarlara qarşı ədalətsizlik edilir və onlardan nəsə əldə etmək cəhdləri göstərilir. Buna qətiyyən yol vermək olmaz. Sahibkarlara da deyirəm ki, əgər belə xoşagəlməz halla üzləşsələr, dərhal bizə məlumat versinlər.

Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bizim siyasətimizə ləkə vuran hər bir adam öz cəzasını alacaqdır. Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir.

Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, rəhbərlik edəcəyiniz rayon və şəhərlərdə inkişaf daha da sürətli olsun.

# Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələr genişlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi yenidən görməyə şadam.

**Sultan bin Səid əl-MANSURİ** dedi:

- Mən burada olmaqdan çox məmnunam. Burada özümüzü evimizdəki kimi hiss edirik.

**Prezident İlham ƏLİYEV:** Doğrudur. Ümidvaram ki, səfəriniz çox yaxşı, çox uğurlu və səmərəli keçəcək. Sabah Birgə Hökumətlərarası Komissiyanın iclası keçiriləcək. Ümidvaram ki, o, çox uğurlu olacaq, çünki fəaliyyətimizin əhatə dairəsi artır.

**Sultan bin Səid əl-MANSURİ:** Tamamilə doğrudur.

**Prezident İlham ƏLİYEV:** Əlaqələr olduqca müsbət məcrada inkişaf edir. Siyasi əlaqələr çox güclüdür. Bizim aramızda çox yaxşı qarşılıqlı anlaşma və qarşılıqlı dəstək var. Mən həmçinin sizin Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edən Xarici İşlər nazirinizi görməyə çox şad oldum. Bu mühüm tədbirə verdiyiniz töhfəyə görə sizə təşəkkür edirəm. Bildiyiniz kimi, hazırda Azərbaycan bu mühüm təşkilata sədrlik edir. Biz üç il ərzində buna məsuliyyət daşıyacağıq. Biz, sözsüz ki, dost ölkələrimizi dəstəkləyəcəyik. Bizim beynəlxalq təşkilatlarda çox yaxşı qarşılıqlı dəstəyimiz var, biz hər zaman bir-birimizi dəstəkləyirik. Ticarət dövriyyəmizdə yaxşı nəticələr var. Əlbəttə ki, turizm artır, indi hər iki istiqamətdə.

**Sultan bin Səid əl-MANSURİ:** Bəli, çox əla.

**Prezident İlham ƏLİYEV:** Ölkəmizə səfər edən Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı artır və əlbəttə ki, Azərbaycan vətəndaşları sizin gözəl ölkənizə səfər etməkdən çox məmnundurlar. Əminəm ki, komissiya çərçivəsində siz əməkdaşlığın yeni sahələrini müəyyənləşdirəcəksiniz, ənənəvi sahələrdə əməkdaşlığı intensivləşdirmək üçün addımlar atacaqsınız və biz gələcəkdə dostluğumuzu gücləndirəcəyik.

**Sultan bin Səid əl-MANSURİ:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirik. Mən bilirəm ki, Siz Birləşmiş Ərəb Əmirliklərinin ən böyük dostlarından birisiniz. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və qardaşınız Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarını çatdırmaq istəyirəm. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycan bizim qəlbimizdə xüsusi yer tutur. Biz görüşəndə dərhal bunu hiss edirik. Bu gün mən hava limanından şəhərə hotelə gələndə ətrafı seyr etdim. Azərbaycanda möhtəşəm dəyişikliklər baş verib. Zati-aliləri, ikinci məsələ ondan ibarətdir ki, biz Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında iqtisadi əlaqələrə çox sadiqik.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubay əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və ölkənin vitse-prezidenti və Baş Nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf dinamikasının önəmi vurğulandı, sərmayə qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi, sabah Bakıda keçiriləcək Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın növbəti iclasının bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 91-ci kitabı çapdan çıxıb




Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq, sözdə deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olub. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapıb. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə Görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapıbdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 91-ci kitabında yer alan bu fikirləri dövlət başçısı Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdəki nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin noyabr ayından 2019-cu ilin yanvar ayınadək olan dövrü əhatə edir.

Çoxcildliyin 91-ci kitabında Prezident İlham Əliyevin Belarus və Türkmənistan respublikalarına, Rusiya Federasiyasına rəsmi və işgüzar səfərləri çərçivəsində keçirdiyi görüşlər, habelə imzalanan sənədlər haqqında informasiyalar, dövlət başçılarının mətbuata birgə bəyanatlarının mətnləri yer alıb. Nəşrdə həmçinin Azərbaycan Prezidentinin Türkiyə, Rusiya, İran, ABŞ və digər dövlətlərin, NATO-nun yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair informasiyalar verilib. Dövlət başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin paytaxtımızda iqtisadi, sosial, mədəni infrastruktur obyektlərinin açılış mərasimlərində iştirakına, XXIV Azərbaycan Beynəlxalq telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisi - "BakuTel-2018" ilə tanışlığına dair materiallarla, "Rossiya-24" televiziya kanalına müsahibələrinin mətnləri ilə də tanış ola bilər.

Nəşrdə dövlət başçısının Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə respublikanın ədliyyə işçilərinə və hakimlərə, Azərbaycan müəllimlərinin XV qurultayının, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının iştirakçılarına məktubları, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbriklərinin mətnləri və digər məktublar toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 91-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD, 1619-VQD nömrəli və 9 iyul tarixli 1643-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.1-ci maddəyə "Avtomobil Yolları" sözlərindən əvvəl "bu Qanunun 4.1-4-cü maddəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin və həmin maddədə "4.1-3-cü" sözləri "4.1-4-cü" sözləri ilə əvəz edilsin;

1.2. 4.1-4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"4.1-4. Bu Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumunun 30 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) texniki baxış stansiyalarının saxlanılmasını təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesabına, qalan hissəsi isə "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna köçürülür.";

1.3. aşağıdakı məzmunda 4.1-5-ci maddə əlavə edilsin:

"4.1-5. Bu Qanunun 4.1-ci və 4.1-1 - 4.1-4-cü maddələrində nəzərdə tutulan vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

1.4. 18.65.1.1-ci və 18.65.2.1-ci maddələrdə "20" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

# "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 399; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692, № 10, maddə 872; 2006, № 12, maddə 1007; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2011, № 2, maddə 71; 2013, № 12, maddə 1491; 2015, № 2, maddə 73; 2016, № 3, maddə 415; 2017, № 5, maddə 686; 2019, № 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci maddədə "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin;

1.2. 7-ci maddənin ikinci hissəsindən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış qoşun birləşmələrinin" sözləri çıxarılsın və həmin hissəyə "idarələri," sözündən sonra "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)," sözləri əlavə edilsin.

**Maddə 2.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD və 1661-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.3-cü maddədə ", Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında və Azərbaycan Respublikasının qanunvericiliyi ilə yaradılmış digər silahlı birləşmələrdə" sözləri "və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin;

2.2. 21.2.3-cü maddəyə "müvafiq icra hakimiyyəti orqanlarında" sözlərindən sonra "və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

# "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584; 2003, № 6, maddə 267; 2004, № 12, maddə 979; 2005, № 5, maddə 393, № 12, maddə 1083; 2006, № 2, maddə 67, № 3, maddə 225, № 12, maddə 1012; 2007, № 12, maddə 1202; 2008, № 12, maddə 1049; 2009, № 7, maddə 505; 2012, № 6, maddə 528; 2014, № 8, maddə 958; 2016, № 11, maddə 1777; 2017, № 1, maddələr 18, 32; 2018, № 8, maddə 1671, № 12 (I kitab), maddə 2500; 2019, № 8, maddə 1365) 11-1.2-ci maddəsinə "icmal büdcə xərclərinin" sözlərindən sonra "növbəti ilin proqnozlaşdırılan inflyasiya səviyyəsi nəzərə alınmaqla indeksləşdirilmiş məbləğinin" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2019-cu il oktyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

# "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1685-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1685-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401) 5.26-cı bəndində "293-299" rəqəmləri "293, 294, 295.1-295.5, 296-299" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 24-1-ci hissə əlavə edilsin:

"24-1. Məcəllənin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından - Xidmətin rəisi, onun birinci müavini, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları, Xidmətin Sərhəd nəzarətinin şöbə, məntəqə, bölmə, növbə rəisləri, təhqiqat bölməsinin rəisi və təhqiqatçıları.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# İ.N.Abbasovun Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İlqar Namaz oğlu Abbasov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# M.T.Camalovun Zərdab Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Mərdan Talıb oğlu Camalov Zərdab Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1682-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 12, maddə 2568) ilə təsdiq edilmiş "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.12-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.13-cü yarımbənd əlavə edilsin:

"2.1.13. növbəti ilin proqnozlaşdırılan inflyasiya səviyyəsi.".

1.2. 3-cü hissənin adından "üsulu" sözü çıxarılsın;

1.3. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

**"4. İcmal büdcə xərclərinin hesablanmış yuxarı həddinə tətbiq olunan məhdudiyyətlər**

4.1. İcmal büdcə xərclərinin bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq hesablanmış yuxarı həddi cari ilin təsdiq olunmuş icmal büdcə xərclərinin növbəti il üçün proqnozlaşdırılan inflyasiya səviyyəsi nəzərə alınmaqla indeksləşdirilmiş məbləğinin 103 faizindən çox olduqda, icmal büdcə xərclərinin yuxarı həddi aşağıdakı düsturla hesablanır:

Düstur 5:

İX = İXct * (1 + İpn%)*(1 + 3%)

burada:

İXct - cari ilin təsdiq olunmuş icmal büdcə xərcləri;

İpn - növbəti ilin proqnozlaşdırılan inflyasiya səviyyəsi.

4.2. Bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq növbəti il üçün hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi bu Qaydanın 4.1-ci bəndinə uyğun hesablanmış həddən az olduqda, bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq hesablanmış məbləğ icmal büdcə xərclərinin yuxarı həddi kimi qəbul edilir.

4.3. İcmal büdcə xərclərinin hesablanmış yuxarı həddi əsasında növbəti büdcə ili üçün proqnozlaşdırılan icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsuluna nisbəti növbəti büdcə ili üçün hədəflənən göstəricidən çox olduqda, icmal büdcə xərclərinin yuxarı həddi növbəti il üçün hədəflənən nisbət göstəricisinə uyğun həddə azaldılır.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2019-cu il oktyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# Ə.İ.Əzizovun Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əziz İmran oğlu Əzizov Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# E.E.Həsənovun Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elşad Eldar oğlu Həsənov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# L.B.Babayevin Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Lütvəli Babəli oğlu Babayev Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# İ.N.Abbasovun Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İlqar Namaz oğlu Abbasov Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# R.Ç.Quliyevin Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Rafiq Çəpərxan oğlu Quliyev Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# M.T.Camalovun Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Mərdan Talıb oğlu Camalov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# Ə.İ.Əzizovun Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əziz İmran oğlu Əzizov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

# Milli Məclisdə dövlətin iqtisadi konstitusiyasının müzakirəsi başlayıb

Əvvəli 1-ci səh.

Ona görə də tamamilə məntiqlidir ki, Dünya Bankının hazırladığı sonuncu "Doing Business 2020" hesabatına əsasən, Azərbaycan dünyanın 20 ən islahatçı ölkəsindən biri olub. Biznesə başlama göstəricisinə görə ölkəmiz dünyada 9-cu yeri tutur. Azərbaycanda ardıcıl xarakter daşıyan islahatlar iqtisadi inkişaf üçün əvvəlki illərdə yaradılmış potensialı daha da möhkəmləndirir və artırır: "Bu gün Milli Məclisdə müzakirəsinə başladığımız büdcə zərfi sənədləri ölkə iqtisadiyyatında müşahidə olunan müsbət dəyişiklikləri dolğun əks etdirir. Oktyabrın 15-də keçirilmiş iqtisadi müşavirədə dövlət başçısı İlham Əliyevin dediyi kimi, "Son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər".

Oqtay Əsədov ötən 9 ayda ölkənin sosial-iqtisadi göstəricilərinə nəzər yetirərək bildirdi ki, ölkəmizin valyuta ehtiyatları son 1 ildə 9 faizdən çox artaraq 48,5 milyard dollar təşkil edib. Bu müddətdə ölkə iqtisadiyyatına 10 milyard manatdan çox investisiya yatırılıb. Bu vəsaitin 60 faizindən çoxu qeyri-neft sektoruna yönəldilib. 9 ayda əhalinin gəlirləri 8,9 faiz artıb, inflyasiya isə 2,6 faiz təşkil edib. Bunlar əhalinin sosial rifahının daha da yüksəlməsinin mühüm göstəriciləridir.

Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş iqtisadi siyasət innovativ inkişafı və dövlətə etimadı daha da möhkəmləndirib: "Parlamentə təqdim edilən sənədlərdən aydın olur ki, iqtisadi göstəricilərin artımı 2020-ci ildə də davam edəcək. İlk növbədə bunu söyləmək lazımdır ki, gələn il dövlət büdcəsinin gəlirləri 24,1 milyard manat, xərcləri 26,9 milyard manat olacaqdır. Bu, cari ilin göstəricilərindən müvafiq olaraq 4,2 faiz və 6,8 faiz çoxdur. Proqnozlara görə, əsas iqtisadi göstərici olan ümumi daxili məhsul 3 faiz, o cümlədən qeyri-neft sektorunda yaradılacaq məhsul 3,8 faiz artacaqdır. Bunun nəticəsində ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 70 faizə yaxınlaşacaq.

## 4 milyon 200 min nəfəri əhatə edən 2 sosial paket

Hər il olduğu kimi, 2020-ci ilin dövlət büdcəsi də əhalinin sosial rifahının yüksəlməsinə, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin güclənməsinə, iqtisadiyyata investisiya qoyuluşunun daha da artmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, dövlət borcu üzrə öhdəliklərin icrasına möhkəm maliyyə əsasları yaradır". Növbəti ilin dövlət büdcəsinin xərclərinin strukturunda diqqəti çəkən mühüm məqamlardan biri cari xərclərin həcminin artmasıdır. Belə ki, 2020-ci ildə cari xərclərin həcmi bu ilə nisbətən ciddi şəkildə, yəni 40 faizə yaxın, ölkə üçün strateji sahələr olan təhsil xərcləri 38 faizdən çox, elm xərcləri 42 faiz, müdafiə və təhlükəsizlik xərcləri 21 faiz artırılacaq. Digər strateji sahələrdə də ciddi artımlar nəzərdə tutulur.

Spikerin sözlərinə görə, büdcə sənədlərindən göründüyü kimi, 2020-ci ilin büdcəsi də sosialyönümlü olacaqdır. Gələn il sosial müdafiə və sosial təminat xərcləri 31 faiz artırılacaq. Nəticədə dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 39 faizə yaxınlaşacaq: "2019-cu ildə həyata keçirilmiş iki sosial paketin icrasının gələn il davam etdirilməsi üçün 4 milyard manatadək əlavə vəsait nəzərdə tutulub. Bu sosial paketlərin əhatə dairəsinə 4 milyon 200 min nəfər, bütövlükdə isə hər bir azərbaycanlı ailəsi düşür. 2020-ci ildən icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar olaraq səhiyyə xərcləri 1 milyard 369 milyon manata çatdırılır. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına göstərilən daimi diqqət gələn il də davam etdiriləcək".

Sonda isə Oqtay Əsədov nəzərə çatdırdı ki, dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin birgə iclaslarında ətraflı müzakirə olunub və müzakirələrdən sonra komitələr dövlət büdcəsini Milli Məclisin plenar iclasına tövsiyə ediblər. Hesablama Palatası da büdcə zərfinə öz müsbət rəyini bildirib.

## Hərbi xərclərin artması obyektiv zərurətdən doğur

Çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsindədir. İllər keçdikcə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün tədbirlər görür.














Büdcə layihəsi "Büdcə sistemi haqqında" qanuna uyğun olaraq vaxtında Milli Məclisə təqdim edilib və bütün komitələrdə geniş müzakirə aparılıb. Səslənən təkliflərə münasibət bildirilib. Komitə sədrinin sözlərinə görə, gələn ilin büdcəsi həm sosial, həm də investisiyayönümlüdür. Büdcə layihəsi başlıca iqtisadi sənəd olaraq 2020-ci ildə həyatımızın müxtəlif istiqamətlərini əhatə edən, dünya və ölkə iqtisadiyyatında gözlənilən meyillərin təhlilinə uyğun hazırlanıb.

Ziyad Səmədzadənin sözlərinə görə, Azərbaycanın dövlət büdcəsi son illər dəfələrlə artıb və bundan sonra daha çox artacaq: "Bəzi təşkilatlar bizi tənqid edir ki, Azərbaycanda müdafiə xərcləri də artır. Lakin diqqət yetirmək vacibdir ki, hərbi xərclərin artması obyektiv zərurətdən doğur. Bu sahəyə bundan sonra da diqqət yönəldiləcək: "Artıq Azərbaycanın çox güclü müdafiə potensialı var. Bu, bölgədə ən güclü potensialdır və biz bunu daha da artırmalıyıq. 2020-ci ilin büdcəsi bu tələblərə cavab verir. Azərbaycan həm müdafiə qabiliyyətini, həm iqtisadi təhlükəsizliyini gücləndirmək, həm də ölkənin iqtisadi gücünün artması və bu əsasla əhalinin keyfiyyətli yaşayış səviyyəsini yüksəltməsi istiqamətində daha cəsarətli addımlar atmaq imkanına malik olmalıdır".

## Büdcənin sosialyönümlülüyü təmin ediləcək

Gələn ilin dövlət büdcəsinin əsas parametrləri barədə məlumat verən Maliyyə naziri Samir Şərifov bildirdi ki, 2020-ci il və ortamüddətli dövrdə Azərbaycanın milli iqtisadiyyatının başlıca sektorları üzrə strateji yol xəritələrinin icrası, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi büdcə xərclərinin əsas istiqamətlərindən biri olacaq.

Ənənəvi olaraq büdcənin sosialyönümlülüyü təmin ediləcək. Bu əsasda əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet istiqamətlərdən olacaq. Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci il və ortamüddətli dövrdə də davam etdiriləcək. İnsan kapitalının inkişafı, əmək məhsuldarlığının artırılması, kompetensiyalı işçi qüvvəsinin yaradılması üzrə tədbirlər büdcə siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq. Bu əsasda təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər təhsilin maliyyə təminatı, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaq. Xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq. Bununla əlaqədar aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq. 2020-ci ilin xərc siyasətinin əsas istiqamətlərindən biri səhiyyə sahəsində islahatların dəstəklənməsi olacaq. Belə ki, 2020-ci ildən başlayaraq ilk dəfə olaraq bütün ölkə ərazisində icbari tibbi sığortanın tətbiqi planlaşdırılır ki, bu məqsədlə dövlət büdcəsində əhəmiyyətli maliyyə vəsaiti nəzərdə tutulub. 2020-ci il və ortamüddətli dövrdə nəqliyyat, kommunal infrastruktur, meliorasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin, əlil və şəhid ailələri üçün evlərin tikintisi dövlət əsaslı vəsait qoyuluşunun prioritet istiqamətlərindən olacaq.

## Dövlət Neft Fondundan büdcəyə 11 milyard 350 milyon manat transfert olacaq

2020-ci il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən neftin bir barelinin qiyməti 55 ABŞ dollarına bərabər götürülüb. Bütövlükdə ortamüddətli dövr üçün də icmal və dövlət büdcəsinin layihələri hazırlanarkən həmin qiymətin əsas götürülməsi planlaşdırılır.

Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur. Cari illə müqayisədə xüsusi çəki nisbətində neft gəlirləri 3 faiz bənd azalıb, müvafiq olaraq isə qeyri-neft gəlirlərinin xüsusi çəkisi 3 faiz bənd artıb. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat daxilolma nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 559 milyon manat və ya 7,6 faiz çoxdur. Gömrük orqanlarının xətti ilə büdcəyə 4 milyard manat, yəni 2019-cu ilə nisbətən 298 milyon manat və ya 8 faiz çox vəsait daxil olması proqnozlaşdırılır.

Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14 milyon manat az transfert nəzərdə tutulur.

İcmal büdcəsinin gəlirləri 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcənin kəsiri 1 milyard 955 milyon manat və ya proqnozla nəzərdə tutulan ümumi daxili məhsulun 2,3 faizinə bərabər olacaq.

## Elm, təhsil, səhiyyə, sosial təminat xərclərinə 8 milyard manat ayrılır

2019-cu illə müqayisədə növbəti ildə elm xərclərinə 42,1 faiz, təhsil xərclərinə 38,3 faiz, səhiyyə xərclərinə 31,3 faiz, sosial müdafiə və sosial təminat xərclərinə 31,1 faiz, mədəniyyət, informasiya, bədən tərbiyəsi və gənclər siyasətinə 29,3 faiz, müdafiə və hüquq mühafizə orqanlarının saxlanması xərclərinə 22,5 faiz çox vəsait nəzərdə tutulub.

Dövlət büdcəsinin 10 milyard 210 milyon manatı konkret proqram və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Nazir bildirdi ki, sosial xərclər büdcənin prioritetini təşkil edəcək. Sosialyönümlü xərclər 10 milyard 642 milyon manat təşkil edəcək ki, bu da cari illə müqayisədə 2 milyard 874 milyon manat çoxdur. Əhalinin aztəminatlı təbəqəsinin sosial durumunun yaxşılaşdırılması istiqamətində gələn il ehtiyac meyarı həddinin və yaşayış minimumunun məbləğinin artırılması nəzərdə tutulub.

Gələn il üçün elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, informasiya, bədən tərbiyəsi və gənclər siyasəti xərclərinə 8 milyard 402 milyon manat vəsait sərf olunacaq. İcbari tibbi sığortanın tətbiqi də nəzərə alınmaqla səhiyyə xərclərinin məbləği 1 milyard 369 milyon manata yüksələcək. Sosial müdafiə və sosial təminat xərcləri 3 milyard 245 milyon manat olacaq.

Müdafiə və təhlükəsizliyin təmin edilməsi, məhkəmə hakimiyyəti, o cümlədən hüquq mühafizə orqanları, prokurorluğun saxlanması xərcləri üçün 5 milyard 827 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

## Milli Məclisə keçiriləcək seçkilər üçün 51 milyon manat...

Hərbi qulluqçuların mənzillə təmin olunması, əhalinin güzəştli şəkildə mənzil əldə etməsi, ipoteka kreditləri ilə dəstəklənən məsələlərə də maliyyənin ayrılması nəzərdə tutulub. Bu tədbirlərin maliyyələşdirilməsi üçün 245 milyon manat vəsait ayrılacaq.

Beynəlxalq münasibətlər və beynəlxalq təşkilatlara üzvlük haqları ilə bağlı xərclərin maliyyələşdirilməsinə 413 milyon manat nəzərdə tutulub. Həmin vəsaitin 226 milyon manatı beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı xərclərə, 145 milyon manatı isə xaricdəki diplomatik nümayəndə və səfirliklərin saxlanması xərclərinə yönəldiləcək.

Azərbaycanın xaricdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin, səfirliklərin nəzdindəki mədəniyyət mərkəzlərinin saxlanmasına, diaspor fəaliyyətinin dəstəklənməsinə 20 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Milli Məclisə keçiriləcək seçkilər üçün büdcədən 51 milyon manat ayrılacaq. Bununla yanaşı, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinin təmini üçün də maliyyənin ayrılması nəzərdə tutulur. Siyasi partiyalara və qeyri-hökumət təşkilatlarına 40 milyon manat ayrılması proqnozlaşdırılır.

## Neftin 1 barelinin qiyməti 55 dollardan götürülüb

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, dövlətin iqtisadi sənədi Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasının proqnoz göstəriciləri, "Büdcə sistemi haqqında" qanuna əsasən qlobal iqtisadi çağırışlar, ölkə iqtisadiyyatının inkişaf meyilləri və dövlət başçısı tərəfindən müəyyən edilmiş hədəflər nəzərə alınmaqla hazırlanıb.

Beynəlxalq təşkilatların proqnozları, fiskal dayanıqlığın təmin edilməsi məqsədləri əsas götürülməklə neftin 1 barelinin qiyməti proqnozlaşdırılan dövr üçün 55 dollar qəbul edilib: "Gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Dövlət başçısı çıxışlarında dəfələrlə qeyd edib ki, Azərbaycan artıq postneft dövründə yaşayır. Bu dövrdə daha dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək üçün dərin islahatlar aparılmalıdır. Bu gün milli iqtisadiyyatın inkişafında neft-qaz sektoru öz lokomotiv rolunu saxlamaqda davam edir və qeyri-neft iqtisadiyyatının inkişafına dəstək göstərir. Ancaq bu, bizi arxayınlaşdırmamalıdır. Azərbaycanın sabit, dayanıqlı iqtisadi artımı sosial rifahın davamlı şəkildə inkişafını təmin etmək üçün hökmən yeni inkişaf drayverlərini işə salmalıdır".

Nazirin sözlərinə görə, həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır. Ümumi daxili məhsulun gələn il 3, növbəti illərdə isə 3,3 faiz artacağı proqnozlaşdırılır.

Gələn il üçün inflyasiyanın 4,6 faiz, sonrakı il üçün isə 4 faiz ətrafında olacağı proqnozlaşdırılır: "Gələn il neft-qaz sektorunda 1,6 faiz, növbəti illərdə isə 3 faiz artım proqnozlaşdırılır. Bu ilin 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 16,6 faiz artıb. Növbəti ildə aqrar sektorda 4,8 faiz, sonrakı 3 ildə orta hesabla 4,3 faiz artım gözlənilir". Nazir qeyd etdi ki, görülən işlər nəticəsində qeyri-neft sahəsində ildən-ilə artım qeydə alınır. Bu tendensiyanın növbəti illərdə də davam edəcəyi gözlənilir: "Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət, iqtisadiyyatın dayanıqlığının qorunub saxlanılması üçün görülən tədbirlər növbəti ildə yeni iqtisadi model çərçivəsində əhalinin sosial durumunun daha da yaxşılaşmasına səbəb olacaq".

## Büdcənin proqnozlaşdırılması çox çətin və mürəkkəb prosesdir

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumun büdcə ilə bağlı hazırladığı rəyi təqdim etdi. Bildirdi ki, "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə Hesablama Palatasının rəyi "Hesablama Palatası haqqında", "Büdcə sistemi haqqında" qanunların tələblərinə, həmçinin "Dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələrinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyinin hazırlanması, baxılması və təsdiq edilməsi Qaydaları"na uyğun hazırlanıb.

Vüqar Gülməmmədovun sözlərinə görə, büdcənin proqnozlaşdırılması çox çətin və mürəkkəb prosesdir. İlin əvvəlində nəzərdə tutulmayan və gözlənilməyən xərclərin icra prosesində meydana çıxması dövlət büdcəsində ehtiyat vəsaitlərin nəzərdə tutulmasını zərurətə çevirir. Onun fikrincə, 2020-ci ilin dövlət büdcəsində dövlət borcunun yuxarı hədlərinin azaldılması nəzərdə tutulur. Eyni zamanda, 2020-ci ilin dövlət büdcəsində xərclərin həcmi 2019-cu ildəkinə nisbətən artacaq. Bu isə dövlətin sosialyönümlü xərclərinin artması ilə bağlıdır.

Vüqar Gülməmmədov vurğuladı ki, 2020-ci ilin dövlət büdcəsi layihəsi yeni vahid büdcə təsnifatına əsasən tərtib edilmiş ilk büdcədir. Növbəti ildən qüvvədə olacaq təsnifat dövlət maliyyəsinin beynəlxalq metodologiyaya uyğunlaşması istiqamətində uğurlu addımlardan biridir. Onun sözlərinə görə, növbəti il həm mərkəzləşmiş, həm də yerli gəlirlərdə artım proqnozlaşdırılır. Hesablama Palatası tərəfindən hazırlanan rəydə büdcə layihəsinin icrası ilə bağlı rəy və tövsiyələr verilib. Palata hesab edir ki, təqdim edilən rəy dövlət maliyyəsinin şəffaflaşmasına xidmət edir.

## Qeyri-neft sektorunun inkişafı diqqət mərkəzində saxlanılmalıdır

Nazirlərin və Hesablama Palatasının sədrinin təqdimatından sonra iclasda müzakirələr başlandı. İlk çıxış edən deputat Vahid Əhmədov bildirdi ki, ölkədə qeyri-neft sektorunun inkişafı diqqət mərkəzində saxlanılmalıdır. Deputatın sözlərinə görə, bu sahədə əsaslı vəsait qoyuluşuna daha geniş imkan yaradılmalıdır. Çünki qeyri-neft sektorunun inkişafında imkanlar həddən artıq böyükdür: "Son illər ölkəmizdə sənaye parkları istifadəyə verilib. Bu sənaye parklarının istifadəsinə 3,3 milyard dollar vəsait xərclənib. Bu parklarda 1,5 milyard manata yaxın məhsul istehsal edilib, 306 milyon manata yaxın məhsul isə xaricə ixrac edilib. Biz sənaye müəssisələrini 7 il müddətinə vergidən azad etmişik. Düşünürəm ki, 7 il bəs edər ki, həmin sənaye müəssisələri kifayət qədər effektiv işləsinlər və Azərbaycanın dövlət büdcəsinə vergi versinlər".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı isə dedi: "Çoxuşaqlı ailələrə verilən müavinət sisteminə yenidən baxılsın və mümkün olduğu təqdirdə bir qədər də artırılsın". Deputat güzəştli ipoteka kreditlərinin verilməsi şərtlərinin çoxuşaqlı ailələrə və müəllim ailələrinə şamil olunmasını da təklif etdi. Onun fikrincə, uşaqların asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün dövlət səviyyəsində istirahət mərkəzlərinin yaradılması üçün vəsait ayrılmasına böyük ehtiyac var.

Deputat Gövhər Baxşəliyeva gələn il üçün elm sahəsinə ayrılan vəsaitin artırılmasını dəstəklədi. Deputat vurğuladı ki, xarici ölkələrdə olan Azərbaycan xalqına məxsus əlyazmalar ölkəyə gətirilməlidir. Bunun üçün isə əlavə vəsait tələb olunur: "Ürək ağrısı ilə qeyd edirəm ki, əsrlər boyu xalqımızın milli müstəqilliyi olmadığına görə qeyri-maddi mənəvi sərvətlər, əlyazmalar talanıb, digər ölkələrə aparılıb. Misal olaraq Füzulinin ərəb divanı uzun onilliklər ərzində mütəxəssislər tərəfindən axtarılsa da, son nəticədə Sankt-Peterburqda yerləşən kitabxanadan tapıldı. Xarici ölkələrdə Azərbaycana məxsus kütləvi şəkildə əlyazmalar var. Düşünürəm ki, bu işlə məqsədyönlü şəkildə məşğul olmalı, dünya kitabxanalarında mövcud olan əlyazmaları ölkəmizə gətirməliyik".

Deputat Qənirə Paşayeva, Musa Qasımlı çıxış edərək qeyd etdilər ki, növbəti ilin dövlət büdcəsi Prezident İlham Əliyevin sosial-iqtisadi islahatlarının uğurlarını real təcəssüm etdirir.

## Deputatlardan təklif: siyasi partiyalara ayrılan vəsait artırılsın

Günün ikinci yarısında büdcə ilə bağlı müzakirələr davam etdirildi. Deputatlardan Fəzail Ağamalı, Tahir Rzayev, Rəşad Mahmudov, Sahibə Qafarova, Elman Nəsirov çıxış edərək bildirdilər ki, 2019-cu il ölkəmizin həyatında əhəmiyyətli hadisələrlə zəngin olub. Kadr və struktur islahatları cəmiyyətimizə yüksək töhfə verməkdədir. Bu il əldə edilən uğurlar Prezident İlham Əliyevin islahatlarının alternativsizliyini bir daha təsdiq edir. 2019-cu ildə ölkəmizdə əksər sahələrdə əldə edilən uğurlar 2020-ci ilin dövlət büdcəsində öz əksini tapıb. Deputatlar hesab edirlər ki, gələn il qeyri-neft sektorunun inkişafında mühüm mərhələ olacaq.

"Büdcə müzakirələrinin formatı dəyişdirilməlidir. Hər bir nazir öz sahəsi üzrə ayrıca büdcə hazırlamalıdır, xərcləmələr sayəsində nə fayda görəcəyi ilə bağlı məlumat verməlidir". Bunu isə deputat Fazil Mustafa söylədi. Deputatın digər təklifi isə kommunal xidmətlərlə bağlı idi. Belə ki, F.Mustafa düşünür ki, əhaliyə kommunal xidmətlər göstərən bir sıra şirkətlərin əlverişli şərtlərlə xarici investorlara ən azı 50 illik konsessiya müqaviləsi əsasında idarəetməyə verilməsi zərurətdir. Bu addım dövlət büdcəsinin yükünü azalda bilər.

"Bu büdcə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ən böyük büdcədir. Sosial sahəyə ayrılan vəsait göstərir ki, 2020-ci ilin büdcəsi sosialyönümlüdür". Bu fikirləri səsləndirən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov hesab etdi ki, xalq Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişaf etməsinin, dövlət büdcəsinin daha geniş şəkildə artmasının şahidi olur. Ancaq Azərbaycan inkişaf etdikcə, büdcəsi artdıqca düşmənlər aktivləşirlər: "Həmin qüvvələr ölkəmizin inkişafını istəmirlər. Onlar Azərbaycanın digər ölkələr kimi ağır vəziyyətdə olmasını, başqa dövlətlərin əlinə baxmasını istəyirlər. Milli Məclisdə oturan deputatların hər biri büdcəni müzakirə edir, öz dairələri, təmsil olunduqları ərazidə problemlərin həllini təklif edirlər. Bir qrup isə Bakı Şəhər İcra Hakimiyyəti qarşısında piket edir. İndi soruşmaq lazımdır ki, onlar xalqın problemləri ilə maraqlanır, yoxsa parlamentdə oturanlar?

Əgər onlar BMT-nin ofisi qarşısında belə piket keçirsəydilər, onu başa düşərdim. Çünki işğal altında olan torpaqların sakinləri bələdiyyə seçmək hüququndan məhrum olublar. Bir dəfə də olsun Dağlıq Qarabağın adını çəkməyən insanlar gedib piket keçirirlər. Onların piketi nəticəsində bütün nəqliyyat dayanıb, təhsil sistemi pozulub".

Siyavuş Novruzov qeyd edib ki, Azərbaycan Prezidenti, hökuməti görülən işləri hərtərəfli təqdim edir: "Əgər hər hansı məsələ ilə bağlı iradınız varsa, şikayət edin. Heç bir sahədə narazılığa səbəb olan heç nə tapa bilmirlər. Ortaya iqtisadçı çıxararaq, terminlərlə nəsə demək istəyirlər. Amma onların büdcədən başları çıxmır".

Gələn il parlament seçkilərinin keçiriləcəyini xatırladan komitə sədri dedi ki, büdcədən siyasi partiyalara ayrılan vəsait artırılarsa, müsbət addım kimi qiymətləndirilər.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə də təkliflə çıxış etdi. Deputatın fikrincə, ölkədə sosial evlərin tikintisi daha da genişləndirilməlidir. Paytaxtda, regionlarda bu məsələyə xüsusi diqqət ayrılmalıdır.

Deputat Əli Məsimli isə təklif etdi ki, büdcə layihəsi ilə bağlı rəyini hazırlayan Hesablama Palatasının irəli sürdüyü 30-a yaxın tövsiyəyə diqqətlə nəzər yetirilsin. Deputatlardan Novruzəli Aslanov, Elman Nəsirov, Musa Quliyev, Kamilə Əliyeva, Bəxtiyar Əliyev, Aytən Mustafayeva, Qüdrət Həsənquliyev, Nəsib Məhəməliyev, Fərəc Quliyev, Tahir Mirkişili, Cavid Osmanov, Aydın Hüseynov, Azər Badamov, Elmira Axundova, Mirkazım Kazımov çıxış edərək bildirdilər ki, 2020-ci ilin büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsidir. Yeni büdcə layihəsi 3 il müddətində xalqın sosial rifah halının yaxşılaşdırılmasına mühüm töhfəsini verəcək. Büdcədə xərclərin 39,5 faizinin sosial sahəyə həsr edilməsi bir daha təsdiq edir ki, dövlət əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atır. Müxtəlif təkliflər səsləndirən deputatlar siyasi partiyalara, QHT-lərə və KİV-lərə ayrılan vəsaitin artırılmasını istədilər.

Qanun layihəsinin müzakirəsi bu gün davam etdiriləcək.

*Rəşad BAXŞƏLİYEV,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*

# Konstitusiyamız və milli ideologiyamız



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Konstitusiyamız və milli ideologiyamız" adlı status paylaşıb.

AZƏRTAC statusu təqdim edir: Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsindən 24 il ötür. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin beşinci Konstitusiyasıdır. 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Ona görə də ilk konstitusiya RSFSR-in konstitusiyası əsasında hazırlanmış və 1921-ci il mayın 19-da qəbul olunmuş Azərbaycan SSR-in Konstitusiyası hesab olunur. Azərbaycanın sayca ikinci konstitusiyası 1927-ci ilin mart ayında qəbul edilib. O zaman Azərbaycan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının tərkibində idi və bu şəkildə də SSRİ-yə daxil edilmişdi. 1936-cı ildə SSRİ-nin yeni əsas qanunu qəbul edildikdən sonra ona müvafiq olaraq, 1937-ci ildə Azərbaycanın sayca üçüncü konstitusiyası qəbul olundu. Azərbaycan SSR-in sayca dördüncü konstitusiyası 1978-ci ildə, 1977-ci il SSRİ Konstitusiyası əsasında qəbul edildi. Bu konstitusiyanın hazırlanması və qəbulu o zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdi. Həmin sənəd milli maraqların qorunması baxımından əvvəlkilərdən xeyli fərqlənirdi. Məhz Ümummilli Lider Heydər Əliyevin təkidi ilə 1978-ci il konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu əks olundu. Əvvəlki konstitusiyalarda Dağlıq Qarabağ Muxtar Vilayətinə ayrıca fəsil həsr olunmuş, onun hüquqi statusu şişirdilmişdi. Bu konstitusiyada isə Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyəti orqanları" fəslinin içərisinə salınmış, yəni ona müstəsna əhəmiyyət verilməsinin qarşısı alınmışdı. Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu olduğu kimi, onun milli ideologiyasının - azərbaycançılığın da, azərbaycançılıq ideologiyasına söykənərək yaradılan ilk Konstitusiyanın da banisi hesab olunur. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa və sərbəst bazar iqtisadiyyatına təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi həyatında tətbiq olunan əsas normaları özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir.

Konstitusiya və milli ideologiyanın vəhdətindən bəhs edən Ümummilli Lider öz çıxışlarında vurğulayırdı ki, milli ideologiyamız, ilk növbədə, dövlətimizin konstitusiya normalarına, xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə, mövcud adət-ənənələrə, ölkəmizin bu günü və gələcəyinə bağlı olmalıdır. Görünür, elə bu yanaşmanın nəticəsidir ki, Heydər Əliyevin yaratdığı azərbaycançılıq məfkurəsi və onun məzmununu təşkil edən əsas prinsiplər ölkə Konstitusiyasında konkret formada öz əksini tapmışdır. Ümummilli Lider dövlətçilik maraqlarının qorunmasından danışanda, ilk növbədə ölkənin ali qanununun müddəalarına dönmədən əməl edilməsini xüsusi vurğulayırdı, konstitusiya normalarının hər bir Azərbaycan vətəndaşının ümummilli vəzifəsi olduğunu qeyd edirdi. Bu normalar, Əsas Qanunun preambula hissəsində təsbit olunub və ilk növbədə: ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasını, vətəndaş cəmiyyətinin bərqərar olunmasını, xalqın iradəsinə, qanunların aliliyinə əsaslanan hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsini, milli-mənəvi dəyərlərə sadiqliyi, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və digər ümumbəşəri dəyərlərə hörmət hissini ehtiva edir.

Heydər Əliyev həm Konstitusiyamızın, həm də azərbaycançılıq ideologiyasının əsasına, ilk növbədə, bütün vətəndaşların sabit, firavan və dinamik inkişafına cavab verən milli dövlətçiliyi - müstəqil Azərbaycan Respublikasını qoyurdu. Ulu Öndər çıxışlarında bu məsələyə belə şərh verirdi: "Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur". Milli ideologiyadan danışarkən Heydər Əliyev qeyd edirdi ki, "biz, ilk növbədə, bütün xalqımızı, bütün soydaşlarımızı Azərbaycanın müstəqil dövlətçiliyi ətrafında birləşdirməliyik, gənclərimizi, gələcək nəsilləri dövlətçilik prinsiplərinə sadiq ruhda tərbiyə etməliyik". Məzmunundan da göründüyü kimi, həm Əsas Qanunun, həm də azərbaycançılıq ideologiyasının mərkəzində hər şeydən əvvəl dövlətçilik maraqları - güclü Azərbaycan dövlətinin yaradılması və bütün sahələr üzrə inkişafının təmin edilməsi prinsipi dayanır. Bəhs olunan güclü Azərbaycan dövləti anlayışı xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə söykənərək onları daim yaşadacaq və zənginləşdirəcək bir siyasi-iqtisadi və sosial-mənəvi idarəçilik institutunun mövcudluğunu ehtiva edir. Bu dövlətin sabit və multikultural ictimai-siyasi həyatı, təkmil mərkəzi və yerli idarəetmə sistemi, işlək qanunları olmalı, hər bir vətəndaşının imkan və bacarıqları hakimiyyət tərəfindən lazımi səviyyədə dəyərləndirilməli, hər bir vətəndaş etnik-dini və sosial mənsubiyyətindən asılı olmayaraq, yalnız şəxsi qabiliyyətinə görə proseslərə cəlb edilməli, ölkədə tam şəffaf və tolerant mühit yaradılmalıdır.

Konstitusiyada və azərbaycançılıq ideologiyasında irəli sürülən digər əsas tələb (norma) ümumazərbaycançılıq (ümumvətəndaşlıq) ideyasına söykənən milli birlik və vətəndaş həmrəyliyi prinsipidir. Bu prinsip müasir Azərbaycan dövlətçiliyinin təməlində dayanır və bütün digər siyasi, sosial-etnik maraqlardan üstün tutulur. Ümumazərbaycançılıq qayəsinin təməlində ədalətli və hamı üçün məqbul sayılan ictimai həyat normalarına əməl edilməsi, ölkənin hər bir vətəndaşının Azərbaycan dövlətinə bağlılığı, onu özünün güvənc yeri sayması, doğma Vətəni qürur mənbəyi hesab etməsi, başqa etnik-dini mənsubiyyəti olan vətəndaşlarla multikultural birgəyaşayış normalarının bərqərar olması və s. kimi tələblər dayanır. Bu tələblərin həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli, dövlətin də bu sistemin təminatçısı olmasını mütləq qəbul etməlidir. Bir sözlə, bu rakursdan baxdıqda, konstitusiya normaları və azərbaycançılıq ideologiyası artıq hansısa bir siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, ölkənin milli maraqlarına söykənərək bütün Azərbaycan xalqının ümumi mənafelərinin ifadəsinə çevrilib. Belə olan halda, bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmağa bərabərdir.

Bir faktı da xüsusi vurğulamaq istəyirəm ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev həm tarixilik prinsipini, həm də varislik ənənələrini qoruyub saxladı. Ulu Öndər Azərbaycanın XIX əsrin sonu, XX əsrin birinci yarısında yaşayıb-yaratmış milli-vətənpərvər və maarifçi-demokrat ziyalılarının, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının birləşdirici ideya kimi irəli sürdükləri azərbaycançılıq ideologiyasına müraciət etdi. Həm də nəinki sadəcə müraciət etdi, onu real və dolğun məzmunla zənginləşdirərək dövlət siyasəti səviyyəsinə qaldırdı. Konstitusiyamızda və milli ideologiyamızda dövlətçilik maraqları, milli birlik və vətəndaş həmrəyliyi prinsipləri ilə yanaşı, həm də yeni vətəndaş amilinə - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir fədakarlığa hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, dövlət dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı yetişdirilməsi ideyasına xüsusi önəm verilib. Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, fəal insanlar kimi görürdü. Ümummilli Lider deyirdi: "Biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda, bəşəri dəyərləri mənimsəməlidir".

Beləliklə, ölkə tarixinin mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Ulu Öndərin yaratdığı dövlətçilik təlimi və onun ayrılmaz hissəsi olan Konstitusiya müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir, ölkənin davamlı inkişafı və tərəqqisinə xidmət göstərir. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş səmərəli dövlət siyasətini ardıcıl olaraq uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin müstəqil dövlət quruculuğu istiqamətindəki nəzəri və praktiki irsinə qiymət verərək demişdir: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları - azərbaycançılıq məfkurəsi formalaşdırıldı... Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir".

Milli dövlətimiz durduqca, Ümummilli Lider Heydər Əliyevin nurlu ideyalarından və ümumbəşəri dəyərlərdən yoğrulan Azərbaycan Konstitusiyası və azərbaycançılıq məfkurəsi dövlətimizin gələcək inkişafı və tərəqqisi yoluna daim işıq salacaqdır.

## *Ziyafət ƏSGƏROV:* "Azərbaycan əraziləri hesabına ikinci erməni dövlətinin yaradılmasına yol verə bilmərik"

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, dəfələrlə bəyan edildiyi kimi, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Azərbaycanın ərazi bütövlüyü isə danışıqlar mövzusu deyil.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis Sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov



Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərinə münasibət bildirərkən deyib.

Ziyafət Əsgərov bildirib ki, ermənilər özləri üçün bir dövlət yaradıblar, artıq ikincisini yaratmaq arzusundadırlar. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və burada başqa söhbət də ola bilməz. Dəfələrlə bəyan etmişik ki, biz, əlbəttə, Azərbaycan ərazisi daxilində ermənilərə öz müqəddəratını təyinetmə hüququ verə bilərik, yalnız Azərbaycanın ərazisi daxilində. Biz Azərbaycan əraziləri hesabına ikinci erməni dövlətinin yaradılmasına yol verə bilmərik. Hansısa muxtariyyətdən söhbət gedə bilər, lakin bu, mütləq şəkildə Azərbaycanın ərazisi daxilində olmalıdır.

## *Müdafiə naziri:* "Azərbaycan Ordusu sürətlə inkişaf edir"

Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla nazirliyin rəhbər heyəti Azərbaycan Ordusunun hərbi hissələrindən birində əsgər valideynlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Dövlət Bayrağı Günü münasibətilə keçirilən andiçmə mərasimində və "Açıq qapı günü" ilə əlaqədar tədbirdə iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbərliyi əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan heykəli önünə gül dəstələri qoyaraq Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra hərbi hissədə gənc əsgərlərin hərbi andiçmə mərasimi keçirilib. Gənc əsgərlər sıra meydanında vətənə sədaqət andı içiblər.

"Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin sərəncamı bir daha şəxsi heyətin diqqətinə çatdırılıb.

Bayram nitqi ilə çıxış edən Müdafiə naziri Ali Baş



Komandanın ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdıraraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusu sürətlə inkişaf edir, ölkənin hərbi qüdrətinin artırılması sahəsində yüksək nailiyyətlər əldə olunub.

Nazir qeyd edib ki, ordumuz müasir silah və hərbi texnika ilə silahlanır, yeni hərbi hissələr, yaşayış kompleksləri inşa edilərək istifadəyə verilir. Bütün bunlar bizə imkan verir ki, Azərbaycan Ordusunun qoşun növləri, hərbi hissələri və bölmələrinin döyüş qabiliyyətini, o cümlədən şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək səviyyədə saxlayaq, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirək, xalqımızın ordusuna və işğal olunmuş torpaqların tezliklə azad olunacağına inamını daha da artıraq, gənc nəsli isə hərbi xidmətə həvəsləndirək.

"Hər bir Azərbaycan əsgəri döyüş hazırlığını daim artırmalı, nümunəvi və nizam-intizamlı olmalı, sərəncamındakı ən müasir silah və hərbi texnikanı bacarıqla tətbiq etməyi bacarmalı, işğalçılara qarşı döyüşlərdə mərdlik və fədakarlıq göstərməyə hər an hazır olmalıdır. Azərbaycan Ordusunun gücü məhz şəxsi heyətin vətənpərvərliyində, döyüş əzmi və ruh yüksəkliyində, yüksək nizam-intizamında və peşəkarlığındadır", - deyə Müdafiə naziri bildirib.

Nazir Dövlət Bayrağı Günü münasibətilə şəxsi heyəti təbrik edərək onlara uğurlar arzulayıb.

Andiçmə mərasimi şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi ilə başa çatıb.

Əsgər valideynləri ilə görüşən general-polkovnik Z.Həsənov hərbi xidmətlə əlaqədar onları maraqlandıran sualları cavablandırıb, bir sıra məsələlərin həlli ilə bağlı müvafiq vəzifəli şəxslərə göstərişlər verib.

Sonra "Açıq qapı günü" çərçivəsində Müdafiə naziri tədbir iştirakçıları ilə birlikdə hərbi hissədə təşkil olunan "Azərbaycanın tarixi bayraqları" sərgisinə baxış keçirib. Tədbir iştirakçılarına tarixin müxtəlif dövrlərinə təsadüf edən dövlət bayraqları haqqında ətraflı məlumat verilib.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının ifasında geniş konsert proqramı ilə davam edib.

Tədbirin sonunda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

## Müdafiə naziri əməliyyat təlimlərinin başlanması ilə bağlı məruzələri dinləyib

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimlərinin başlanması ilə bağlı nazirliyin rəhbər heyəti ilə xidməti müşavirə keçirib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, döyüşü idarəetmə mərkəzində keçirilən toplantıda bildirilib ki, təlimin planına əsasən Azərbaycan Ordusunun birlik və birləşmələri, qoşun növləri və qisimləri "Həyəcan" siqnalı ilə qaldırılaraq tam döyüşə hazırolma dərəcəsinə gətirilib.

Müşavirədə əsas və ehtiyat idarəetmə məntəqələri, həmçinin qoşun növlərinin komanda məntəqələri ilə birbaşa videobağlantı qurularaq qoşunların cari vəziyyəti barədə brifinq təqdim olunub, əməliyyat şəraiti, kəşfiyyat fəaliyyəti, aviasiya və raket-artilleriya qoşunlarının döyüş imkanları haqqında məruzələr dinlənilib.

Müxtəlif qoşun növlərinin əməliyyatların planlaşdırılması qruplarında olan Müdafiə naziri qoşunlara, bölmələrə qərarların və döyüş tapşırıqlarının çatdırılması üzrə müvafiq göstərişlər verib.

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi başlayıb

*Əvvəli 1-ci səh.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, üç mərhələdə keçirilən təlimin əsas məqsədi şərti düşmənin təxribatlarının qarşısını almaqla hücum əməliyyatlarının aparılması zamanı qərargahların və qoşunların idarəetmə orqanlarının hazırlığının, eləcə də ümumqoşun birlikləri, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsidir.

Əməliyyat təlimində qoşunların dayanıqlı, fasiləsiz, operativ və gizli idarəedilməsi, qərargahların səhra idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi, videokonfranslar və fiberoptik kommunikasiya xətləri vasitəsilə sərəncam və əmrlərin taktiki və əməliyyat səviyyəsində sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların qəbulu üzrə vərdişlər məşq etdirilir.









## Azərbaycan XİN Lavrovun Yerevanda Ermənistan-Azərbaycan münaqişəsinə dair səsləndirdiyi fikirlərə münasibət bildirib

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Yerevanda keçirilən mətbuat konfransı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı sualı cavablandırarkən səsləndirdiyi fikirlərə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla bağlı açıqlamasında deyib: "Əlbəttə ki, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təklif olunan hər hansı planın tərkib hissəsini təşkil edir. Hər zaman qeyd etdiyimiz kimi, bir daha vurğulamaq istərdim ki, yalnız bu bölgədən didərgin salınmış azərbaycanlıların Dağlıq Qarabağda öz evlərinə geri qayıtması münaqişənin Azərbaycan Respublikasının sərhədləri daxilində bölgənin hər iki - azərbaycanlı və erməni icmalarının sülh və təhlükəsizlik şəraitində birgə yaşamasını nəzərdə tutan yüksəksəviyyəli özünüidarəetmə statusu əsasında həlli üçün real imkanlar aça bilər. Bunun üçün isə ilk növbədə münaqişənin həlli ilə bağlı substantiv danışıqlar aparılmalı və Ermənistanın işğalçı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonundan çıxmalıdır".

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Füzuli rayonunun Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 13-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika aparacaqlar.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində noyabrın 12-də Bakıda növbəti həyətin açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi 41, 43, 45, 47, 49, 51, 53 və 55 ünvanlarında 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ərazidə 1 minifutbol meydançası, 1 şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, 12 söhbətgah və 15 oturacaq quraşdırılıb, velosiped yolu salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda müntəzəm idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb, əraziyə suvarma hidrantı quraşdırılıb. Sakinlərin təhlükəsizliyinin təmin olunması məqsədilə həyət müşahidə kameraları ilə təchiz edilib.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# DTX-nin Heydər Əliyev adına Akademiyasında elmi-praktiki konfrans keçirilib

Noyabrın 12-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında Dövlət Bayrağı Günü, Konstitusiya Günü və Milli Dirçəliş Gününə həsr olunmuş “Dövlət atributlarından Konstitusiyaya” mövzusunda respublika elmi-praktiki konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransda Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, professor Ziyafət Əsgərov, Azərbaycan Respublikasının xüsusi təyinatlı ali təhsil müəssisələrinin rəisləri və digər rəhbər şəxsləri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və digər ali təhsil müəssisələrinin əməkdaşları, doktorant və kursantları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə güllər düzüblər.

Konfrans iştirakçıları akademiyada fəaliyyət göstərən “Şöhrət” muzeyini ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin və mənalı həyat yolunu əks etdirən nadir fotoşəkillər, sənədlər, arxiv materialları ilə tanış olublar. Muzeydə nadir eksponatlar nümayiş etdirilib, Ulu Öndərin bütün varlığı ilə bağlı olduğu Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyinin qorunub saxlanılması, əbədi və dönməz olması yolundakı fədakar əməyi, o cümlədən dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyəti, onun şəxsən həyata keçirdiyi və peşəkarlıq zirvəsinin nümunələri olan əməliyyatlar haqqında məlumatlar verilib. Konfrans iştirakçıları akademiyada nəşr edilən kitabların sərgisi ilə də tanış olublar.

Konfrans işinə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının unudulmaz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Dövlət Bayrağı Günü, Konstitusiya Günü və Milli Dirçəliş Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransın plenar iclasını giriş nitqi ilə DTX-nin Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsinin icraçısı polkovnik Allahverən İsmayılov açıb. Məruzəçi dövlət atributlarının hər bir dövlətin milli varlığını və istiqlal duyğularını özündə əks etdirən mühüm amillərdən olduğunu qeyd edib. Natiq dövlət atributlarının mahiyyəti və əhəmiyyətindən bəhs edərək, qaynağını tarixin qədim dövrlərindən alan, milli-mənəvi dəyərlərimizi və çağdaş, sivil düşüncəmizi özündə yaşadan bayrağımızın yalnız ideya-siyasi, fəlsəfi mahiyyəti ilə deyil, həm də rəng çalarları ilə ciddi məna kəsb etdiyini xüsusi vurğulayıb. O, həmçinin 1995-ci ildə ümumxalq səsverməsi ilə müstəqil Azərbaycan Respublikasının Əsas Qanununun - Konstitusiyasının qəbul edilməsinin müstəqil demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun qarantı olduğunu və bu Konstitusiyanın Azərbaycan xalqının həyatında baş verən köklü dəyişikliklərlə bağlı olduğunu bildirib. Məruzəçi Ümummilli Lider Heydər Əliyevin elmi prinsiplərə və zəngin intellektual potensiala əsaslanan mükəmməl dövlətçilik konsepsiyası yaratdığını, dövlətin idarə edilməsi sahəsində əvəzsiz elmi-nəzəri və praktiki irs qoyduğunu, həmçinin bu Konstitusiyanın müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd olduğunu qeyd edib.

Konfransda Azərbaycan Respublikasının Milli Məclisi Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə koMitəsinin sədri, professor Ziyafət Əsgərov Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulundan, onun əsas prinsiplərindən, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından, siyasi stabilliyə və iqtisadi inkişafa nail olmaq üçün atdığı addımlardan, o cümlədən dahi rəhbər tərəfindən vətəndaş müharibəsinin, ekstremizmin, separatçılığın qarşısının alınmasından, cəbhədə atəşkəsə, siyasi stabilliyə və iqtisadi inkişafa nail olunmasından bəhs edib. Məruzəçi Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul olunmasında Konstitusiya Komissiyasının sədri kimi Ulu Öndər Heydər Əliyevin xüsusi xidmətinin olduğunu vurğulayıb. Sonra məruzəçi Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il Konstitusiyasının əsas xüsusiyyətlərindən, o cümlədən hüquq və qanunvericilik sisteminin əsasını təşkil etməsindən, konstitusiya quruluşunun başlıca prinsiplərindən, dövlət hakimiyyətinin bölgüsü prinsipi əsasında təşkilindən, insan hüquq və azadlıqlarının konstitusion təsbiti və təminatlarından danışıb.

Sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin rəisi, general-mayor İlqar Məmmədov və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki Qulu Novruzov, üçrəngli bayrağın qürurvericiliyindən və müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının demokratik, hüquqi və dünyəvi dəyərləri, eləcə də Milli Dirçəliş Gününün mahiyyəti barədə çıxış ediblər.

“Dövlət atributlarından Konstitusiyaya” adlı respublika elmi-praktiki konfransının plenar iclası başa çatdıqdan sonra konfransın bölmə iclaslarında altmışdan çox iştirakçının məruzələri dinlənilib.

Sonda DTX-nin Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsinin icraçısı polkovnik Allahverən İsmayılov konfransa yekun vurub.

# Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və Azərbaycan tarixi” VI ümumrespublika bilik yarışı keçirilib

Noyabrın 12-də Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və Azərbaycan tarixi” VI ümumrespublika bilik yarışı keçirilib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə reallaşdırılan layihədə bu il 49 ali təhsil müəssisəsinin komandaları iştirak edib.

Tədbirdə məlumat verilib ki, 2014-cü ildən etibarən hər il həyata keçirilən layihə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, Ulu Öndərin irsinin yaşadılması və gənclər arasında təbliği, eyni zamanda, gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədini daşıyır. Builki yarış isə 12 Noyabr - Konstitusiya Gününün qeyd olunduğu tarixdə keçirilir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci ilin məhz bu günü ümumxalq səsverməsi ilə qəbul edilib.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin Konstitusiya Günü ilə bağlı çıxışını əks etdirən videoçarx nümayiş olunub.

Diqqətə çatdırılıb ki, “Heydər Əliyev və Azərbaycan tarixi” bilik yarışında iştirak edən komandalar hazırlıq məqsədilə oktyabrın 29-dan noyabrın 7-dək Mərkəzdəki Heydər Əliyev Muzeyini ziyarət edib, burada toplanmış məlumat və eksponatlar, foto və videomateriallarla tanış olublar.



Sonra tələbələrin yarışa hazırlığını əks etdirən videoçarx nümayiş olunub.

Bu il Azərbaycan-Fransız Universitetinin (UFAZ) komandasi ilk dəfə, Naxçıvan Dövlət Universitetinin komandası isə dördillik fasilədən sonra yenidən bilik yarışına qatılıb.

Bilik yarışında suallar Ulu Öndər Heydər Əliyevin irsini, Azərbaycan tarixinin mühüm dövr və hadisələrini əhatə edib.

Münsiflər heyətində Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri təmsil olunublar.

Bilik yarışında Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası ikinci, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının komandası üçüncü yerlərə layiq görülüblər.

Qalib komandalar mükafatlandırılıb. Onlara diplom və medallar, qalib komandanın kapitanına kubok təqdim edilib.

Yarışın qalibi olan Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandasının kapitanı Bəxtiyar Əlizadə bu cür genişmiqyaslı bilik yarışlarının təşkil edilməsində böyük rolu olan Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, Ulu Öndərin irsinin, tariximizin öyrənilməsi hər bir Azərbaycan vətəndaşının borcudur. “Heydər Əliyev və Azərbaycan tarixi” VI ümumrespublika bilik yarışında iştirak edən ali təhsil müəssisələrinin komandaları yüksək bilik nümayiş etdiriblər. Buna baxmayaraq, biz qələbə qazandıq. Daxili İşlər Nazirliyinin Polis Akademiyasının müəllim-professor heyətini, kursantlarımızı və komandamızın üzvlərini təbrik edirəm”.

# *Əli NAĞIYEV:* “Dini-ekstremist və terrorçu qrupların fəallaşmaq cəhdləri beynəlxalq təhlükəsizliyi hələ də ciddi təhdid edir”

Özbəkistan Respublikasının Daşkənd şəhərində MDB iştirakçısı olan ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının (SORB) 47-ci iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-leytenant Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, SORB-un iclasında beynəlxalq terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif növlərinə, habelə millətlər və konfessiyalararası münaqişələrin yaradılması cəhdlərinə qarşı mübarizənin fəallaşdırılması və təkmilləşdirilməsi yolları, qarşılıqlı əməliyyat məlumatı mübadiləsi və təhlükəsizliklə bağlı digər aktual məsələlər üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub. Bundan başqa, terrorçuların MDB ölkələrinə daxil olmaq, terrorçu qruplaşmalara yeni üzvlərin cəlb edilməsi cəhdlərinə qarşı əlavə tədbirlərin görülməsi məsələləri də diqqət mərkəzində olub, həmçinin Əfqanıstan İslam Respublikasındakı mövcud vəziyyətin Mərkəzi Asiyada regional təhlükəsizliyə təsirləri araşdırılıb.

General-leytenant Əli Nağıyev iclasda çıxış edərək bildirib ki, Suriya və İraq ərazisində terror təşkilatlarının əsas dayaq bazalarının məhv edilməsinə baxmayaraq, dini-ekstremist və terrorçu qrupların fəallaşmaq cəhdləri beynəlxalq təhlükəsizliyi hələ də ciddi təhdid edir. Terror şəbəkəsinin təbliğat məqsədilə müasir informasiya texnologiyalarından geniş istifadə etdiklərini diqqətə çatdıran Xidmət rəisi bu təhlükəli fəaliyyətin ekstremist və dini radikalizm ideologiyasının yayılmasına, yeni potensial terror ocaqlarının formalaşmasına şərait yaratdığını söyləyib. General-leytenant Əli Nağıyev həyata keçirilmiş tədbirlər nəticəsində 30-dan çox xarici vətəndaşın Azərbaycan Respublikasının ərazisindən istifadə etməklə ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrə qoşulmaq cəhdinin qarşısının alındığını bildirib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təhlükəsizlik və sabitlik əleyhinə yönəlmiş ümumi təhdidlər, ilk növbədə terrorçuluq və dini ekstremizm ilə mübarizədə beynəlxalq tərəfdaşlığın möhkəmləndirilməsinin və kollektiv tədbirlərin görülməsinin zəruriliyini vurğulayıb. Bu baxımdan təhlükəsizlik və xüsusi xidmət orqanları arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin vacib olduğunu diqqətə çatdıran Xidmət rəisi ölkələrimizin təhlükəsizliyinin səmərəli təmin olunması istiqamətində təcrübə və məlumat mübadiləsinin daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev ilə Özbəkistan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sədri Abdusalom Azizov arasında keçirilmiş görüşdə hər iki ölkənin təhlükəsizliyinin qorunması məsələləri, o cümlədən terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif növlərinə qarşı birgə mübarizənin effektivliyinin artırılması üzrə fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Özbəkistan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

General-leytenant Əli Nağıyevin digər tərəfdaş xüsusi xidmət orqanlarının nümayəndə heyətləri ilə keçirdiyi ikitərəfli görüşlərdə də mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, eləcə də təhlükəsizlik sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev SORB-un 47-ci iclasının nümayəndə heyətlərinin rəhbərlərini qəbul edib. Dövlət başçısı ölkələrimizin təhlükəsizliyinə mümkün təhdid və hədələrə qarşı birgə mübarizənin gücləndirilməsi məqsədilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

23 dekabr bələdiyyə seçkiləri günüdür

# Məzahir PƏNAHOV: "Azərbaycan vətəndaşlarının seçki hüquqlarının qorunması ilə bağlı bütün addımlar atılır"




Əvvəli 1-ci səh.

M.Pənahov bildirib ki, Azərbaycan dünyanın demokratik ölkələrindən biridir və buna şübhə ola bilməz. Azərbaycanın bütün sahələrdə olduğu kimi, seçki sahəsində də nə qədər inkişaf etdiyi göz qabağındadır. O, dekabrın 23-də bələdiyyə seçkilərinin demokratik keçiriləcəyinə əminliyini ifadə edib.

Məzahir Pənahov qeyd edib ki, bələdiyyə seçkilərində beynəlxalq müşahidəçilərin sayı kifayət qədər olacaq. Onun sözlərinə görə, adətən bələdiyyə seçkilərində beynəlxalq müşahidəçilərin sayı prezident və parlament seçkilərinə nisbətən o qədər də çox olmur. "Amma Mərkəzi Seçki Komissiyası olaraq Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinə artıq dəvət göndərmişik. Çünki Konqres adətən bələdiyyə seçkilərində müşahidələr aparır. Onların gəldiyi qənaət beynəlxalq miqyasda lazımi səviyyədə qarşılanır. Bundan əlavə, 15 müxtəlif ölkənin ali seçki qurumları da dəvət olunub", - deyə MSK sədri qeyd edib.

Seminar-müşavirədə çıxış edən Ali Məhkəmənin kollegiya sədri Hikmət Mirzəyev seçki hüquqlarının pozuntusu ilə bağlı işlərə baxarkən yuxarı seçki komissiyaları tərəfindən şikayətin bütün dəlillərinin hərtərəfli araşdırılmasının təmin edilməsini bir daha tövsiyə edib. O əlavə edib ki, bütün seçki komissiyaları seçki hüquqlarının daha da səmərəli həyata keçirilməsi istiqamətində fəaliyyətlərini davam etdirməlidirlər.

Onun sözlərinə görə, seçki prosesini həyata keçirən orqanların fəaliyyəti vətəndaşların hüquqlarının təmin edilməsinə yönəlməlidir. Müvafiq olaraq vətəndaşların güman etdikləri hüquq pozuntularına dair işlər üzrə məhkəmədə mübahisənin açılması mümkündür. Seçki Məcəlləsinin 112.1-ci maddəsində də göstərilib ki, seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayət verilə bilər. Lakin qanunvericilikdə təsbit edilib ki, şikayət əvvəlcə yuxarı seçki komissiyalarına, daha sonra isə məhkəməyə verilə bilər. Bununla qanunvericilik aşağı seçki komissiyalarında yol verilmiş pozuntuların məhkəməyə gəlmədən yuxarı seçki komissiyaları tərəfindən aradan qaldırılması imkanı yaradır.

Kollegiya sədri qeyd edib ki, seçki hüquqlarının müdafiəsinə dair işlərə məhkəmə tərəfindən baxılması məsələlərini İnzibati Prosessual Məcəllə tənzimləyir. Buna görə də həmin işlərə inzibati məhkəmə icraatı qaydasında baxılır. Əsas məsələlərdən biri vətəndaşların seçki hüquqlarının pozulması ilə bağlı şikayətlərin istər müvafiq yuxarı seçki komissiyalarında, istərsə də məhkəmələrdə araşdırılması ilə bağlıdır. Bununla bağlı diqqətinizi mühüm bir məqama cəlb etmək istəyirəm. Bu, şikayət vermiş şəxsin şikayətin baxılmasında iştirakının təmin edilməsi və onun irəli sürdüyü bütün dəlillərin araşdırılması məsələsidir. Şəxsin özünün şikayətinə baxılmasında iştirak etmək hüququ ən təməl hüquqlardan biri olmaqla təmin edilməlidir.

Daha sonra Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevin və Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşinin çıxışları dinlənilib. Qeyd edilib ki, seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının məlumatının artırılması və bu istiqamətdə görülən işlərin effektivliyinin gücləndirilməsi vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Tədbirin gündəliyinə uyğun olaraq seminar-müşavirədə "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası", "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında təqdimatlar keçirilib, seçki mübahisələrinin həllinə dair çıxışlar dinlənilib.

Müvafiq məhkəmə orqanlarının təmsilçiləri, Mərkəzi Seçki Komissiyasının üzvləri, komissiyanın aidiyyəti struktur bölmələrinin əməkdaşları və region üzrə dairə seçki komissiyaları sədrlərinin qatıldığı tədbirin yekununda seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli ilə bağlı bir sıra aktual məsələlər ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, bu il ölkəmizdə bələdiyyə seçkilərinin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi üçün çoxsaylı geniş miqyaslı maarifləndirmə layihələrindən biri kimi gerçəkləşdirilən və seçki mübahisələrinin həllinə həsr olunan seminar-müşavirələrin noyabrın 13-də Gəncədə, 14-də Şəkidə, 15-də Şirvanda və 18-də Naxçıvan Muxtar Respublikasında da keçirilməklə bütün seçki dairələrinin dairə seçki komissiyalarını əhatə etməsi nəzərdə tutulur.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Noyabrın 11-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il noyabrın 7-də keçirilən iclasının protokolu təsdiq olunub.

Sonra 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikaçılar Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən partiya tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

İclasda həmçinin cari məsələlərə baxılıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələri iclasda iştirak edib.

## QƏRAR № 13/54

### Mərkəzi Seçki Komissiyasının 7 noyabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 7 noyabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

*Sədr Məzahir Pənahov*
*Katib Arifə Muxtarova*
*Katib Mikayıl Rəhimov*

*11.11.2019*

## QƏRAR № 13/56

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Könül Həsrət qızı Hüseynova 103 saylı Gədəbəy seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

*Sədr Məzahir Pənahov*
*Katib Arifə Muxtarova*
*Katib Mikayıl Rəhimov*

*11.11.2019*

## QƏRAR № 13/55

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikaçılar Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikaçılar Partiyası Plenumunun 2019-cu il 23 oktyabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Respublikaçılar Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. səlahiyyətli nümayəndə:
Raci Pirəli oğlu Atakişiyev
1.2. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Allahyar Baxış oğlu Süleymanov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr Məzahir Pənahov*
*Katib Arifə Muxtarova*
*Katib Mikayıl Rəhimov*

*11.11.2019*

# Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri dördüncü ticarət məclisi keçirilib





Noyabrın 12-də Bakıda Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri dördüncü ticarət məclisi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansuri, digər qurumların təmsilçiləri, hər iki tərəfdən biznes nümayəndələri iştirak ediblər.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Əhməd Hamil əl-Qubeysi ticarət məclisinin tərəfdaşlarının sayının ildənilə artdığını, hazırda məclisdə 50 şirkətin təmsil olunduğunu bildirib.

Diplomat Azərbaycan və BƏƏ iş adamlarının əməkdaşlığından da danışıb.

Nazir Sultan bin Səid əl-Mansuri çıxışında bildirib ki, hər iki ölkənin şirkətləri müxtəlif sərgilərdə öz məhsullarını qarşılıqlı təqdim edirlər. Bundan başqa, ölkələrimiz arasında qeyri-neft sektorunda ticarət əlaqələri sürətlə inkişaf edir.

Nazir Mikayıl Cabbarov iki ölkə arasında əlaqələrin tarixi köklərə əsaslandığını deyib. O, ticarət əlaqələrimizin gücləndiyini, lakin hələ daha çox iş görülməli olduğunu qeyd edib. İqtisadi əməkdaşlığın təşviq olunacağını vurğulayan nazir turizm sektorunda da ciddi artımların müşahidə edildiyini söyləyib. Bildirib ki, son dövrlərdə ticarət dövriyyəsi artıb. İqtisadi əlaqələrin genişlənməsi investorların da fəaliyyətinə mühüm təsir göstərib.

Mikayıl Cabbarov ticarət məclisinin ölkələr arasında iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün vacib platforma olduğunu bildirib. O, həmçinin Azərbaycanın investisiya mühiti, biznes üçün yaradılan şərait, logistika mərkəzləri, sənaye zonaları, investisiya təşviqi mexanizmi barədə məlumat verib,

Qeyd edək ki, ticarət məclisində BƏƏ tərəfdən 20-dən çox nümayəndə iştirak edib.

# ABŞ-ın bir sıra ştatlarının seçki orqanlarını təmsil edən qanunvericilərdən ibarət nümayəndə heyəti Milli Məclisdə olub

Noyabrın 12-də ABŞ-ın bir sıra ştatlarının seçki orqanlarını təmsil edən qanunvericilərdən ibarət nümayəndə heyəti Milli Məclisin Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov Azərbaycanda gedən islahatlar, ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu irimiqyaslı layihələr barədə ətraflı məlumatlar verib. Bildirib ki, dünyada və regionda gedən mənfi proseslərə baxmayaraq, ölkəmizdə sabitlik hökm sürür və iqtisadiyyatımız sürətlə inkişaf edir.

Azərbaycanın ABŞ-la enerji sahəsində uğurlu əməkdaşlığına toxunan Səməd Seyidov diqqətə çatdırıb ki, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən neft-qaz layihələrini ABŞ daim dəstəkləyib və bu dəstək bu gün də davam edir.

Söhbət zamanı qonaqlara Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələri barədə də məlumat verilib. Bildirilib ki, ölkəmizdə milli və dini tolerantlıqla bağlı vəziyyət, konfessiyalararası dözümlülük, multikultural dəyərlərin təşviqi hər zaman nümunəvi xarakter daşıyıb. Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan bütün dinlərin həmrəyliyinə çalışan ölkə kimi ad qazanıb.

Nümayəndə heyətinin rəhbəri, Montana ştatı senatının sədri Raymond Skott Seyls ABŞ-Azərbaycan münasibətlərinin inkişafı, mədəniyyət və təhsil sahələrində əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüb.

Söhbət zamanı Azərbaycanla ABŞ-ın həm federal, həm də ştatlar səviyyəsində mövcud əməkdaşlığının genişləndirilməsinin vacibliyi, bu istiqamətdə qanunverici orqanların rolu barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sahibə Qafarova, Ülviyyə Ağayeva və Asim Mollazadə iştirak ediblər.

# Yuta ştat senatoru: "Azərbaycan multikulturalizm kimi humanist dəyərləri dünyada öz nümunəsində layiqincə tətbiq edir"

Noyabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı (DQİDK) Dünya dini liderlərinin II Bakı sammitində iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan ABŞ-ın nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə nümayəndə heyətinin üzvlərinə ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri barədə məlumat verən Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, dövlətin konfessiyalara münasibətində də bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi ölkəmizdə qeydiyyatdan keçməklə fəaliyyət göstərən dini icmaların fəaliyyətinin dəstəklənməsi, dövlət tərəfindən mütəmadi maddi yardımların ayrılması, onların ictimai həyatın bir parçası kimi cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlərin görülməsində aydın şəkildə müşahidə etmək olar.

Eyni zamanda, Azərbaycan həqiqətləri, bir milyondan çox azərbaycanlının Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşməsi, işğal olunmuş ərazilərimizdə dini abidələrimizin vandalizmə məruz qalması kimi faktlara toxunan komitə sədri görüş iştirakçılarının təmsil etdiyi Montana, Havay, Yuta ştatlarının Xocalı qətliamı, eləcə də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlarını yüksək qiymətləndirib. O, Dünya dini liderlərinin II Bakı sammiti kimi mötəbər tədbirlərdə bu cür tərkibdə nümayəndə heyətlərinin iştirakının qarşılıqlı əlaqələrin inkişafında böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Oreqon Ştat Senatının sədr müavini Laurel Sue Monnes Anderson ölkəmizdə dini etiqad azadlığının qanunla təsbit olunmasını müsbət hal kimi dəyərləndirib. Respublikamızdakı tolerantlıq mühiti barədə məlumatlı olduğunu söyləyən qonaq Oreqon Ştat Senatı və Nümayəndələr Palatasının 2016-cı ildə Azərbaycanın tolerantlıq ənənələrini təqdir edən bəyannamə qəbul etdiyini də diqqətə çatdırıb. Yuta ştat senatoru Vilyam Gene Davis isə bildirib ki, Azərbaycan bir dövlət olaraq multikulturalizm kimi humanist dəyərlərini dünyada təbliğ və öz nümunəsində layiqincə tətbiq edir.

Dövlət komitəsinin sədri sonda qonaqlara DQİDK tərəfindən ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr olunmuş kitabları təqdim edib.

# Milli Məclisdə Dağıstan parlamentinin nümayəndə heyəti ilə görüş olub

Noyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsində Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisi Sədrinin müavini Kamil Davdiyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli Azərbaycanla Dağıstan arasında əlaqələrin qədim köklərə, ənənələrə və qardaşlıq münasibətlərinə əsaslandığını söyləyib. O deyib ki, Milli Məclisdə fəaliyyət göstərən Rusiya ilə parlamentlərarası əməkdaşlıq üzrə işçi qrupu ən böyük və çalışqan qruplardan biridir.

Komitə sədri qonaqlara Milli Məclisin strukturu, fəaliyyət prinsipləri, elm və təhsil sahəsində qəbul olunmuş qanunlar, ölkəmizin təhsil sistemi, təhsilin pillələri, elm və təhsilə göstərilən dövlət qayğısı barədə məlumat verib.

Söhbət zamanı təhsil sahəsində təcrübə mübadiləsi, parlamentlərarası əlaqələrin inkişafı və digər mövzular müzakirə edilib.

Kamil Davdiyev Dağıstanda Azərbaycanla münasibətlərə xüsusi önəm verildiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın böyük oğlu Əziz Əliyev Dağıstanın rəhbəri olarkən onun dağıstanlılar üçün gördüyü işlər heç vaxt unudulmur, həmişə ehtiramla yad edilir. Müzakirələrdə Milli Məclisin deputatları Ülviyyə Ağayeva, Kamilə Əliyeva və Sona Əliyeva iştirak ediblər.

Görüşdə elm və təhsil sahəsində əməkdaşlıq, texniki peşə məktəblərinin fəaliyyəti, yeni yaradılmış ixtisaslar barədə fikir mübadiləsi aparılıb.

# Türkiyə bundan sonra da Azərbaycanın haqq işini müdafiə edəcək

İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 24-cü iclasının yekun sənədində Azərbaycanın maraqlarına uyğun iki maddənin salınmasının bu günə təsadüf etməsi xüsusilə önəmlidir. Çünki bu gün Azərbaycanın Dövlət Bayrağı Günüdür. Azərbaycanı bu gözəl bayram münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Bu bayraq heç zaman enməyəcəkdir.

Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu İƏT-in Nazirlər Şurasının Antalyada keçirilən 24-cü iclasının yekunlarını AZƏRTAC-a şərh edərkən söyləyib.

Nazir diqqətə çatdırıb ki, bugünkü iclasın yekun sənədində Ermənistanın bölgədə iqtisadi inkişafa maneə törətməsi, xüsusilə də Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməklə regionun iqtisadi potensialının azalmasına səbəb olması barədə iki bənd var. Türkiyə bundan sonra da beynəlxalq səviyyədə Azərbaycanın haqq işini müdafiə edəcəkdir.

# Həqiqi soyqırımı ermənilər tərəfindən yaxın tariximizdə Xocalıda törədilib

Uydurma "erməni soyqırımı" ilə bağlı qəbul olunan qərarlar Türkiyənin Suriyada həyata keçirdiyi "Sülh çeşməsi" antiterror əməliyyatını pozmaq üçün ortaya atılmış təzyiq vasitəsidir. Həqiqi soyqırımı isə ermənilər tərəfindən yaxın tariximizdə Xocalıda törədilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu İƏT-in Baş katibi Hadi Süleymanpur ilə birgə Antalyada keçirdiyi mətbuat konfransında səsləndirib. Nazir diqqətə çatdırıb ki, Xocalıda qaça bilməyən hər kəs ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib. Orada 613 günahsız azərbaycanlı soydaşımız, o cümlədən 106 qadın, 83 uşaq öldürülüb.

Nazir Mövlud Çavuşoğlu bildirib ki, gerçək soyqırımı axtaranlar YPG/PKK terror təşkilatlarının İraq və Suriyada törətdikləri insanlıq əleyhinə cinayətlərə baxsalar yaxşıdır.

# Sülhün, ədalətin və kamilliyin tərənnümçüsü

**Bu** gün müstəqil Azərbaycan Cənubi Qafqazın lider dövləti olmaqla bərabər, həm də regionun dini mərkəzi kimi qəbul olunur. Geosiyasi baxımdan mühüm coğrafi məkanlardan sayılan Qafqaz bölgəsində tarix boyu həm etnik, həm də dini cəhətdən gərginlik yaratmağa cəhdlər göstərilib ki, bu cəhdlər də bölgədə müxtəlif millətlər və onların mənsub olduqları din və inanc qrupları arasında toqquşmaların meydana gəlməsi ilə nəticələnib. Bu baxımdan bir çox fərqli dini inancın və etnik qrupun cəmləşdiyi bölgədə dini tolerantlığa, dözümlülüyə, sülh şəraitində birgəyaşayışa nail olmaq da böyük zəhmət tələb edirdi.

Xüsusilə, Sovet İttifaqı dağıldıqdan sonra müstəqil, muxtar respublikaların yaranması özü ilə birlikdə çoxsaylı problemlər gətirdi. İstər sovet dövründə, istərsə də müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan həm milli, həm də dini zəmində problemlərlə qarşı-qarşıya qaldı. Tarixin müxtəlif dövrlərində bir çox siyasi və dini liderlər bölgədə sülhün, əmin-amanlığın qorunub saxlanılması üçün mübarizə aparıblar. Məhz bu dövrdə Qafqaz xalqları arasında sülhün qorunub saxlanılmasında ruhani rəhbər kimi Şeyxülislam Allahşükür Paşazadə böyük əmək sərf edib.

1975-ci ildən xalqın mənəvi cəhətdən irşadı, milli-mənəvi dəyərlərin bərpası yönündə dini lider olaraq bütün səylərini ortaya qoyan A.Paşazadə 1980-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçildi, bu qurumun tarixində 12-ci şeyxülislam oldu. Məsələlərə hər cür məzhəbçilikdən uzaq, sırf islam mövqeyindən yanaşması onun Qafqazdakı bütün müsəlmanlar arasında böyük etibar və nüfuz qazanmasına gətirib çıxardı. Daim müdrik dini siyasət yürüdən Şeyxülislam Allahşükür Paşazadə SSRİ-nin repressiv antidin siyasəti dövründə belə dindarların basqılar altına düşməsinin qarşısını məharətlə ala bildi. O, fəaliyyətinin ilk günlərindən etibarən dini ibadətgahların - məscidlərin, ziyarətgahların təmirinə və bərpasına çalışıb, bu yerlərin kommunist ideologiyasının qurbanına çevrilərək klublar, anbarlar, muzeylər şəklində istifadəsinin əleyhinə olub. İstər sovet dövründə, istərsə də müstəqillik illərində bir sıra beynəlxalq təşkilatlarda xalqını təmsil etməsi isə insanların öz dini liderinə olan yüksək sədaqət və etimadının göstəricisi kimi qiymətləndirilməlidir.

Şeyxülislam Allahşükür Paşazadə 1989-cu ildə SSRİ Ali Sovetinə xalq deputatı seçilən ilk müsəlman din xadimi olub. 1980-ci ildən Qafqaz Müsəlmanları İdarəsinin sədri kimi səmərəli fəaliyyəti Allahşükür Paşazadəyə ölkə daxili ilə yanaşı, ölkə xaricində də böyük nüfuz qazandırmışdı. Hacı Allahşükür Paşazadə hələ SSRİ dövründən Qafqaz Müsəlmanları İdarəsinin sədri kimi beynəlxalq aləmlə əlaqələri genişləndirməyi, dünya miqyasında nüfuzlu təşkilatlarla münasibətləri formalaşdırmağı fəaliyyətinin əsas prioritetinə çevirmişdir. Məhz onun bu fəaliyyətinin nəticəsində 1986-cı il oktyabr ayının 1-də "Müsəlmanlar sülh uğrunda mübarizədə!" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Dünyanın 60 ölkəsindən 600 nəfər nüfuzlu dövlət və din xadimlərinin iştirak etdiyi beynəlxalq konfrans çoxsaylı xarici qəzet, jurnal və televiziyaların hazırladıqları materiallar sayəsində böyük əks-səda yaratmış, müsəlman dövlətlərinin Azərbaycana marağının artmasına gətirib çıxarmışdır. Şeyx həzrətlərinin bu uzaqgörənliyi sonradan Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində faydalı olmuşdur. Təsadüfi deyil ki, sovet illərində fəaliyyət göstərən dörd müsəlman ruhani idarəsindən yalnız Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi məhz Şeyxülislam Allahşükür Paşazadənin şəxsi nüfuzu və böyük hörməti sayəsində öz mahiyyətini qoruyub saxlayaraq, daha da genişlənərək regionun ən güclü dini mərkəzi - Qafqaz Müsəlmanları İdarəsi kimi fəaliyyətini bu gün də davam etdirir.

Bu gün Qafqaz Müsəlmanları İdarəsi bütün dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən tanınır, fəaliyyətinə yüksək qiymət verilir. Qafqaz müsəlmanlarının səsi ən mötəbər beynəlxalq tədbirlərdən, nüfuzlu təşkilatlardan gəlir. Bunların sırasında BMT, UNESKO, İKT, "Vicdana çağırış" fondu, Ümumdünya Xalq İslam Rəhbərliyi və s. nüfuzlu təşkilatların adlarını çəkmək olar. QMİ-yə 40 ildir ki, başçılıq edən Şeyxülislam Allahşükür Paşazadə nüfuzlu beynəlxalq təşkilatlarda rəhbər vəzifələrə, o cümlədən Müstəqil Dövlətlər Birliyi Dinlərarası Şurasının həmsədri, Müstəqil Dövlətlər Birliyi müsəlman dini liderlərinin Məşvərət Şurasının və Qafqaz Xalqları Ali Dini Şurasının sədri, Ümumdünya İslam Konqresinin, Ümumdünya Sülh Şurasının, habelə Avrasiya İslam Şurasının rəyasət heyətinin üzvü vəzifələrinə seçilib. Bu 40 ildə o, şeyxülislam kimi cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin qorunması, təbliği, o cümlədən milli həmrəyliyin bərqərar olunması, beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, xalqımızın multikultural və tolerant dəyərlərinin təbliği, Qarabağ problemi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində geniş fəaliyyət göstərmişdir. Ayrı-ayrı ölkələrin ən nüfuzlu dövlət və din xadimləri tərəfindən ehtiramla qəbul edilən böyük şəxsiyyət Allahşükür Paşazadənin ölkəmizin bütün dünyada tanıdılmasında, Azərbaycanın islam dünyasının aparıcı dövlətlərindən birinə, islam dünyasında böyük söz sahibinə çevrilməsində, həm respublikamızda, həm də Qafqazda sülh və qardaşlığın bərqərar olmasında və qorunub saxlanılmasında misilsiz və danılmaz rolu var. İslam dininə daim sadiqlik nümayiş etdirən Şeyx həzrətləri bütün bu illər ərzində istər Azərbaycanda, istərsə də regionda baş verən mühüm hadisələr zamanı sülhməramlı missiya daşımış, milli-mənəvi dəyərlərin qorunub saxlanılması işində həmişə ön sıralarda olmuşdur. Ömrünün yarıdan çoxunu Qafqaz müsəlmanlarına rəhbərlikdə keçirən Şeyx həzrətləri sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafında, eləcə də ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasında öz fəaliyyəti ilə seçilmişdir. Dövlət-din münasibətlərinin düzgün məcraya yönəldilməsi, vətəndaş birliyinin təmin olunması işində fəal mövqe tutan Allahşükür Paşazadə həm sovet dövrünün, həm də müstəqillik tarixinin şeyxülislamıdır. Şeyxülislam kimi o, müasir Azərbaycan tarixində milli şüurun inkişafı və dövlətçiliyimizin qorunması yolunda böyük xidmətlər göstərmişdir.

Şeyxülislam Allahşükür Paşazadə müstəqilliyin ilk illərində pozucu qüvvələrin islam dininə məxsus müxtəlif təriqətlər, eləcə də digər dinlərin nümayəndələri ilə islam dini təmsilçiləri arasında ixtilaf yaratmaq cəhdlərinə qarşı da uğurla mübarizə aparıb. İslam dininin sevgi və ehtiram dini olduğunu, digər din və təriqətlərə münasibətdə də hörmətli davranmağı vacib buyurduğunu diqqətə çatdıran Şeyxülislam Allahşükür Paşazadə radikal çağırış və cəhdlərin qarşısını alıb, islamın vəhdət və sülh dini olması fikrini daim təbliğ edib.

Millətin taleyində önəmli rol oynayan şəxsiyyətlər daim millətin çətinliklərlə qarşılaşdıqları, faciə, xaos dönəmlərində ortaya çıxıblar. A.Paşazadə 1990-cı ilin 20 yanvarında baş verən hadisələr zamanı azğın imperiyanın bütün təhdidlərinə baxmayaraq mövqeyini açıq şəkildə ortaya qoymaqla adını Azərbaycan tarixinə təkcə müdrik din xadimi, dini lider kimi deyil, həm də əsl vətənpərvər, əsl şəxsiyyət kimi yazdırmışdır. Xalqımızın tarixinə qanlı səhifə kimi yazılmış həmin faciə günlərində Moskvada Ulu Öndər Heydər Əliyev, Azərbaycanda isə bir qrup vətənpərvər ziyalılarla yanaşı, Şeyxülislam A.Paşazadə özlərinin barışmaz mövqeyi, fədakar səyləri nəticəsində həqiqətlərin dünya dövlətlərinə çatdırılmasına çalışıblar.

Həmin günlərdə Şeyx həzrətləri dünya ictimaiyyətinin gözü qarşısında özünü əsl dini rəhbər kimi təsdiq etmişdir. Faciədən bir gün sonra Allahşükür Paşazadə həbs olunmaq təhlükəsinə məhəl qoymadan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi M.Qorbaçova ünvanladığı bəyanatda sərt və ittihamedici fikirlər səsləndirmişdir. O, həqiqəti söyləməkdə bir an belə tərəddüd etməmiş, onun xarici radiostansiyalara, qəzetlərə verdiyi açıqlamalar qanlı hadisələrin birbaşa təşkilatçılarının ifşa olunmasında, onların Azərbaycan xalqına qarşı yürütdükləri mənfur siyasətin əsl məqsədinin açılmasında mühüm rol oynamışdır.

20 Yanvar hadisələrinin qurbanlarının Şəhidlər xiyabanında torpağa tapşırılmasının ümummilli matəm səviyyəsində keçirilməsində də Şeyxülislam A.Paşazadənin müstəsna xidmətləri olub. Bəzi qüvvələr xalqın öz şəhid övladlarının əziz xatirəsini gələcəkdə də əbədiləşdirməsi baxımından Bakının ən yüksək ərazisində dəfnin təşkil edilməsinə mane olmağa çalışmışlar. Ancaq A.Paşazadə SSRİ müdafiə naziri D.Yazov və Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko ilə görüşərək şəhidlərin cənazələrinin "Azadlıq" meydanından başlayaraq indiki Şəhidlər xiyabanınadək çiyinlərdə aparılacağını, onların məhz bu yerdə dəfn olunacağını qəti şəkildə bildirmişdir. Həmin faciəvi günlər ərəfəsində Azərbaycandakı siyasi qeyri-sabitlikdən və xaosdan faydalanan kommunist imperiyası qanlı hadisələrdən sonra Bakıda millətlərarası münaqişə yaratmağa çalışmışdır ki, bunun da qarşısının alınmasında A.Paşazadənin xidmətləri az olmamışdır. Məhz onun təşəbbüsü ilə Rus Pravoslav Kilsəsinin Azərbaycandakı yepiskopu şəhidlərin dəfn mərasimində iştirak etmiş və bununla da faciənin bütün xalqlar tərəfindən pislənildiyi açıq nümayiş etdirilmişdir.

Ulu Öndər Heydər Əliyev də Şeyxülislam Allahşükür Paşazadənin 1990-cı il Qanlı Yanvar hadisələrində, çətin və ağır günlərdə xalqın ən böyük dəstəkçilərindən olmasını, Allahşükür Paşazadənin sovet dövlətinin başçısı Mixail Qorbaçova ittihamnamə ünvanlamasını, həmçinin BMT-nin Baş katibi Peres de Kuelyara, bütün dövlətlərin və dinlərin başçılarına müraciətlər göndərərək imperiya siyasətini, bu qanlı cinayəti lənətləməsini hər zaman yüksək qiymətləndirib. Biz Şeyxülislam şəxsiyyətinin böyüklüyünün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün rus, gürcü, erməni dini liderləri və beynəlxalq dini təşkilatların rəhbərləri ilə dəfələrlə görüşlər keçirməsində, erməni kilsəsinin rəhbərlərini Qarabağ məsələsi ilə bağlı konstruktiv dialoqa dəvət etməsində bir daha şahidi oluruq. Bir din xadimi, Vətəninin, xalqının təəssübünü, qayğısını çəkən insan kimi atdığı bu addımları ona böyük hörmət və nüfuz qazandırıb.

Vətənpərvər şəxs və milli dövlətçiliyin müdafiəçisi kimi Şeyx Həzrətləri müasir Azərbaycan tarixində milli şüurun inkişafı və Azərbaycan dövlətçiliyinin qorunması yolunda müstəqilliyimizin ilk illərində, çox mürəkkəb bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin dinə, milli-mənəvi dəyərlərə münasibətdə yürütdüyü müdrik siyasətin həyata keçirilməsində mühüm yer tutub. Ümummilli Lider 1998-ci ilin 12 iyul tarixində Bibiheybət məscid-ziyarətgah kompleksinin açılışı mərasimindəki nitqi zamanı bu fikirləri səsləndirib: *"Bizim doğma islam dinimizin Azərbaycanda öz yerini tapmasında, insanların öz dini etiqadlarını yerinə yetirməsində, dinimizin özünəməxsus yer tutmasında Qafqaz Müsəlmanları İdarəsi və bu idarənin başçısı, Şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Azərbaycanın Prezidenti kimi, mən bu fürsətdən istifadə edərək, respublikamızda islam dininin bütün tələblərinin yerinə yetirilməsi və insanlara vicdan azadlığının verilməsi sahəsində əldə etdiyi nailiyyətlərə, Azərbaycanda xalqın, millətin birliyinin, həmrəyliyinin möhkəmləndirilməsində, inkişaf etməsində göstərdiyi fəaliyyətə görə Qafqaz Müsəlmanları İdarəsinə və onun rəhbəri hörmətli Hacı Allahşükür Paşazadəyə hörmət və ehtiramımı bildirirəm..."*

Milli-mənəvi dəyərlərin xalqın tərəqqi və rifaha qovuşmasında əhəmiyyətini dərk edən Ulu Öndər mədəni-mənəvi həyatın inkişafına həmişə xüsusi diqqət yetirmişdir. O, milli və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşı azərbaycançılıq məfkurəsi ətrafında birləşdirərək ölkəmizi etnik separatçılıq, dini zəmində parçalanma, məzhəb ayrı-seçkiliyi təhlükəsindən xilas edə bilmişdir. Vicdan azadlığı məsələsinə xüsusi əhəmiyyət verən Ulu Öndər ölkəmizdə bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün hər cür şəraitin yaradılmasını daim diqqət mərkəzində saxlamışdır. Biliyini, təcrübə və qüvvəsini Azərbaycan xalqının rifahına həsr edən Heydər Əliyevin uzaqgörən, praqmatik siyasəti sayəsində respublikamız regionda lider dövlətə çevrilmiş, bütün dünyada milli və bəşəri dəyərlərə ehtiramı ilə seçilən məkan kimi tanınmışdır. Bu gün bu siyasəti möhtərəm Prezident İlham Əliyev uğurla davam etdirir. Müasir, güclü dövlətin əsasında milli, dini adət-ənənələrə sadiqliyin önəmini vurğulayan ölkə rəhbərinin gördüyü işlər nəticəsində Azərbaycanın tolerantlıq və multikultural ənənələri inkişaf etdirilərək dünyaya çatdırılmış, dindarlar dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunmuş, dini-mədəni abidələrin bərpası təmin edilmiş, yeni ibadət məkanları tikilmişdir. Prezident İlham Əliyevin müqəddəs günlərdə, bayramlarda müxtəlif konfessiyalara təbrik müraciətləri ünvanlaması, hər il Ramazan ayı münasibətilə Şeyx həzrətlərinin açdığı iftar süfrəsində iştirak etməsi ənənəvi hal almışdır. Bu, dövlət başçısının Qafqaz Müsəlmanları İdarəsinin sədrinə bəslədiyi xoş münasibətdən, fəaliyyətinə verdiyi böyük önəmdən irəli gəlir. Prezident İlham Əliyev iftar mərasimindəki çıxışlarından birində Şeyx həzrətlərinə daşıdığı vəzifəyə hörmət və ehtiramını bu şəkildə ifadə etmişdir: *"Şeyx həzrətləri həm ölkə daxilində, həm də beynəlxalq aləmdə çox böyük nüfuza malik olan şəxsiyyətdir. Mən bunu yaxından bilən adam kimi tam qətiyyətlə deyə bilərəm. Müxtəlif dövlət başçıları ilə aparılan söhbətlərimdə hər zaman Şeyx həzrətləri haqqında qarşı tərəfdən səslənən müsbət fikirlər məni çox sevindiribdir. Bu, Şeyx həzrətlərinin insani xüsusiyyətləridir, onun qabiliyyətidir, onun Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə nə qədər sadiq olduğunun bariz nümunəsidir. Eyni zamanda bu, ölkəmiz üçün də böyük töhfədir. Çünki sirr deyil ki, dinlərarası münasibətlərdə Şeyx həzrətlərinin böyük rolu vardır. O, böyük hörmətə malikdir və istər müsəlman ölkələrinə, istər başqa ölkələrə səfər edərkən bir çox hallarda Şeyx həzrətləri haqqında söhbət açılır və mən ona, sözün əsl mənasında, böyük rəğbəti görürəm".*



Allahşükür Paşazadənin ictimai, dini fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır. Qafqaz bölgəsinin ən nüfuzlu din xadimi kimi 1992-ci ildə Qafqaz Xalqları Ali Dini Şurasının sədri seçilən Şeyx həzrətləri regionda hərbi münaqişələr ocağına çevrilmiş məntəqələrdə sabitliyin əldə olunması işində sülhməramlı missiya həyata keçirir. Qafqaz müsəlmanlarının ali dini rəhbəri kimi iştirak etdiyi bütün qurum və təşkilatlarda bu bölgənin xalqlarının maraqlarını ən yüksək səviyyədə qoruyur və onların haqq işini müdafiə edir.

Həmçinin A.Paşazadə islam həmrəyliyi prinsipindən yola çıxaraq İraqda baş verən hadisələrə, Fələstin xalqının üzləşdiyi əzab-əziyyətə qarşı etirazını dilə gətirib, İraq, Fələstin, Livan ərazilərindəki hərbi münaqişələri, terrorçu İŞİD qruplaşmasının törətdiyi cinayətləri qəti şəkildə qınamışdır. O, sivilizasiyanın beşiyi hesab olunan bu torpaqlarda müqəddəs və qədim tarixi abidələrin, dini ziyarətgahların qorunması üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar qarşısında təşəbbüslər irəli sürmüşdür. Həmişə sülh, dialoq və tolerantlıq tərəfdarı olan Şeyx həzrətləri iştirak etdiyi beynəlxalq konfranslarda dinlər arasında tolerantlığın inkişafı üçün dialoqun önəmini vurğulamış, münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə diqqət çəkmişdir. Bu da ona beynəlxalq aləmdə böyük nüfuz və hörmət qazandırmışdır.

Qafqaz Xalqları Ali Dini Şurasının sədri Şeyxülislam Allahşükür Paşazadə Moskva və bütün Rusiyanın patriarxı II Aleksi ilə birlikdə BMT yanında Dinlərin Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Nəticədə müsəlman, xristian və yəhudi din xadimlərinin UNESKO nəzdində formalaşdırılması nəzərdə tutulan yüksəksəviyyəli Məşvərət qrupunda A.Paşazadənin müsəlman din xadimlərini təmsil edəcəyi qərara alınmışdır. O, 2009-cu ilin iyulunda UNESKO-nun yanında yaradılan din xadimlərinin yüksəksəviyyəli Məşvərət qrupunun üzvü seçilmişdir. Xristian aləmində də böyük nüfuz və ehtiram sahibi olan Şeyx həzrətləri, eyni zamanda 2006-cı ildən Roma Katolik və Rus Pravoslav kilsələrinin təklifi ilə katolik-pravoslav məzhəblərarası əlaqələr komissiyasının üzvüdür.

Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq miqyaslı tədbirlərin, elmi-praktik konfransların Bakıda keçirilməsinin təşəbbüskarı və təşkilatçısı olmuşdur. 1998-ci ildə onun təşəbbüsü ilə Bakıda "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Həmçinin 2003-cü ildə "Allahın lütfü, xalqın xilaskarı", 2004-cü ildə "Qloballaşma və islam", 2005-ci ildə "Qloballaşan dünyada islam", 2006-cı ildə "Tolerantlığın örnəyi - Azərbaycan", "İslamda dözümlülük", 2013-cü ildə "MDB ölkələri sülh və stabil inkişaf tərəfdarıdır", 2014-cü ildə "Dini tolerantlığın möhkəmləndirilməsi: (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)", 2015-ci ildə "İslam maarifçiliyi və müasir dövr" mövzularında keçirilən beynəlxalq konfranslara rəhbərlik etmişdir.

Müstəqil Dövlətlər Birliyi Dinlərarası Şurasının həmsədri olan Allahşükür Paşazadənin təşkilatçılığı ilə 2002-ci ildə Tbilisidə "Qafqazda sülh uğrunda əməkdaşlıq" beynəlxalq forumu, 2004-cü ildə Moskvada Beynəlxalq dinlərarası sülhyaratma forumu, 2006-cı ildə Dünya Dini Liderlərinin Moskva Sammiti, 2010-cu ildə Dünya Dini Liderlərinin Bakı Sammiti keçirilmişdir. Eyni zamanda 2017-ci il "İslam Həmrəyliyi ili" çərçivəsində Dövlət Komitəsi və QMİ-nin birgə təşkilatçılığı ilə "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti", "İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında", "İslam həmrəyliyi: Türkiyə-Azərbaycan dostluğu timsalında", "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında", "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" və "Rusiya-Azərbaycan: sülh, təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və islam həmrəyliyi" mövzularında Finlandiyada, İran İslam Respublikasında, Türkiyədə, Özbəkistanda, İspaniyada və Rusiyada beynəlxalq konfranslar keçirilmişdir. Bu konfransların təşkilində əsas məqsəd dünyada sülhün və ümumi rifahın bərqərar edilməsi üçün ölkələr arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə bir daha diqqətin ayrılması olmuşdur.

Şeyxülislam Allahşükür Paşazadənin elmi fəaliyyəti və əsərləri də olduqca müxtəlif və hərtərəflidir. O, 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi, 1999-cu ildə isə ilahiyyat sahəsində professor adı almışdır.

Şeyxülislam Allahşükür Paşazadə islam tarixi, islam mədəniyyət tarixi sahəsində Azərbaycanın ilk milli tarixçi-islamşünasıdır. O, tarix və ilahiyyat elmləri üzrə "Qafqazda islam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi", "Qurani-Kərimin ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərimin ecazkarlığı", "Qurani-Kərimdə insan təbiəti" adlı monoqrafiyaların, elmi əsərlərin və çoxsaylı məqalələrin müəllifidir. Onun elm və din sahəsindəki əzmkarlığı və təşəbbüskarlığı nəzərdən qaçmamış, Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasına üzv seçilmişdir.

Şeyxülislam A.Paşazadənin Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin imzaladığı sərəncamla respublikamızın ən ali mükafatı "Heydər Əliyev" ordeni, həmçinin Azərbaycanın "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri, İslam Əməkdaşlıq Təşkilatının islam dünyasına xüsusi töhfələrinə görə mükafatı, Rus Pravoslav Kilsəsinin I dərəcəli "Müqəddəs Vladimir" və I dərəcəli "Sergi Radonejski", İordaniya Krallığının I dərəcəli "Kral Hüseyn", Çeçenistan Respublikasının "Millət qəhrəmanı" və "Çeçen qəhrəmanı" və sair orden və medalları ilə təltif edilməsi bir vətəndaş və azərbaycanlı kimi hər birimizi qürurlandırır.

Şeyxülislam Allahşükür Paşazadə milli-mənəvi dəyərlərin qorunması, dini-tarixi abidələrin bərpası, ənənəvi adətlərimizin yeni formada inkişafı naminə irəli sürülən bir çox layihələrin müəllifi kimi tanınır. Məhz Allahşükür Paşazadənin şeyxülislamlığı dönəmində yüzlərlə dini abidələrimiz həyata qaytarılıb, dindarların etiqad azadlığı və ibadət hüququ bərpa edilib. Şeyxülislam həzrətləri Aşura günlərində simvolik qan çıxarılması ayininin mahiyyətinin saxlanılması şərti ilə onun cəmiyyət baxımından daha əhəmiyyətli bir tədbirə çevrilməsinə nail olub. Artıq Aşura günlərində Azərbaycanın bir çox məscid və ziyarətgahlarında İmam Hüseynin (ə) xatirəsinə qanvermə aksiyalarında iştirak edən müsəlmanlar həm müqəddəslərə olan ehtiramını nümayiş etdirir, həm də xəstə insanlara real kömək göstərmələrindən məmnun olurlar. Belə ki, irsi qan xəstəliklərindən əziyyət çəkən insanların, xüsusilə talassemiyalı uşaqların ehtiyaclarının ödənilməsi istiqamətində təmənnasız qan verilməsi aksiyalarının təşkili və həyata keçirilməsi Şeyxülislam Allahşükür Paşazadənin adı ilə bağlıdır.

Bu gün Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi altında Qafqaz Müsəlmanları İdarəsi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında olduqca məhsuldar əməkdaşlıq münasibətləri formalaşmışdır. Bu isə öz növbəsində dövlət-din münasibətlərinin yüksək səviyyəyə çatmasına və dini-mənəvi həyatın daha təkmil olmasına şərait yaradır. Hər iki qurumun məqsədlərinə din sahəsində maarifçiliyi təmin etmək, islamın insanlara olduğu kimi çatdırılmasına nail olmaq daxildir.

*İslam dəyərlərinin, mədəniyyətinin, islam həmrəyliyinin Azərbaycan nümunəsinin təbliği və təşviqi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün Şeyxülislam A.Paşazadə bütün səylərini ortaya qoyur. O, tərəqqipərvər düşüncələri, sülhməramlı missiyası ilə bütün din xadimlərinə, islam aləminə nümunə göstərir. Şeyx həzrətləri öz tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə sahib çıxan bir azərbaycanlı, xalqının taleyinə biganə qala bilməyən vətən övladı, dini dəyərləri yaşadan müsəlman kimi bütün dünyada sülh və sabitliyin, rifah və tərəqqinin bərqərar olmasına öz xoşməramlı töhfəsini verməyi özünə amal seçmişdir.*

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri***

# Noyabrın 14-15-də Bakıda Dünya dini liderlərinin II Sammiti keçiriləcək

## Sammitdə müxtəlif ölkələrin siyasi, ictimai, elm və din xadimləri, beynəlxalq təşkilatların nümayəndələri, dini konfessiya və təriqət liderləri bir araya gələcəklər



Noyabrın 14-15-də müxtəlif ölkələrin siyasi, ictimai, elm və din xadimlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, dini konfessiya və təriqət liderlərinin iştirakı ilə Dünya dini liderlərinin II Bakı Sammiti keçiriləcək.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin Dünya dini liderlərinin II Bakı Sammitinin və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubiley tədbirlərinin keçirilməsi barədə sərəncamlarından irəli gələn sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksəksəviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak edəcəklər.

Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə evsahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti dövlət başçısının təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq dinlərarası və sivilizasiyalararası əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrinin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davam və inkişafıdır. Sammitdə multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu; Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi; dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə; qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti mövzuları ətrafında müzakirələr aparılacaq.

Sammitin yekunlarına dair Bakı bəyannaməsinin qəbulu nəzərdə tutulur.

# Prezident Administrasiyasının rəsmisi "France 2" kanalına müsahibəsində Azərbaycan multikulturalizmi barədə danışıb



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov noyabrın 12-də Fransanın məşhur ictimai televiziya kanalı "France 2"nin çəkiliş qrupuna müsahibə verib. AZƏRTAC xəbər verir ki, həmin çəkiliş qrupu "İslam dünyada" televiziya layihəsi çərçivəsində müsəlman ölkələrin tarixi, dini və mədəni irsi haqqında silsilə verilişlər hazırlayır. Növbəti iki veriliş Azərbaycana həsr olunacaq.

Etibar Nəcəfov müsahibəsində rəhbərlik etdiyi şöbənin əsas fəaliyyət istiqamətləri haqqında danışıb, Azərbaycan dövlətinin ölkədə etnomədəni və dini durumun tənzimlənməsi istiqamətində həyata keçirdiyi siyasət haqqında ətraflı məlumat verib. O qeyd edib ki, tarixən müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, əmin-amanlıq və qarşılıqlı etimad şəraitində yaşadığı Azərbaycanda multikulturalizm dövlət siyasəti səviyyəsinə qaldırılıb.

Şöbə müdiri vurğulayıb ki, multikulturalizm Azərbaycanın daxili siyasətinin tərkib hissəsi olaraq ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə, respublikamızda yaşayan azsaylı xalqların və etnik qrupların etnik-mədəni dəyərlərinin qorunmasına səbəb olur. O bildirib ki, beynəlxalq müstəvidə multikulturalizm siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunması sahəsində böyük uğurlara imza atıb. Belə uğurlardan biri artıq siyasi leksikona daxil olmuş "Bakı Prosesi"dir. Bu təşəbbüs ilk dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci il dekabrın 2-3-də Bakıda "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilmiş beynəlxalq konfransda irəli sürülüb.

Şöbə müdiri bu ayın 14-15-də "Bakı Prosesi" çərçivəsində keçiriləcək Dünya dini liderlərinin II Bakı Sammitinə diqqət çəkib, həmin tədbirin əhəmiyyəti haqqında məlumat verib.

Sonda çəkiliş qrupuna ölkəmizin zəngin tolerant və multikultural ənənəsini əks etdirən kitablar hədiyyə olunub.

## 13 Noyabr Beynəlxalq Gözdən Əlillər Günüdür

# Sönməyən həyat eşqi...

### Onlar görürlər: könüllərinin, duyğularının, hisslərinin həssaslıqları ilə

Deyirlər ki, göz könülün aynasıdır, duyğuların ifadəsi isə hisslərdən öncə baxışlarla ifadə edilir. Bu, əlbəttə, təkcə poetik dünyada deyil, bizi əhatə edən aləmdə də belədir. Gözün insan həyatında daşıdığı funksiyanı nə poeziya, nə də fəlsəfi fikir olduğu kimi ifadə edə bilməz. Gözün gərəkliliyini görmə qabiliyyəti zəif olanlar bəlkə də daha gözəl anlayır desək, səhv etmərik. Yəqin buna görədir ki, duyğularla, könlünün gözü ilə görənlər çox həssas olurlar...



...Etiraf edək ki, gözdən fiziki cəhətdən qüsurlu insanlar həyata daha çox bağlanır, qeyri-adi istedadları ilə diqqəti cəlb edirlər. Ümummilli Lider Heydər Əliyev belə insanların xüsusi diqqət və qayğıya daim ehtiyac duyduqlarını belə ifadə edib: "Bizi sevindirən odur ki, fiziki cəhətdən qüsuru, çatışmazlığı olan insanlar nikbin yaşayırlar və öz iradələrinə söykənərək istedadlarını inkişaf etdirirlər və hətta ölkəmizdə keçirilən festivallarda, müsabiqələrdə çıxış edərək onları ictimaiyyətə nümayiş etdirirlər. Bu, insanın ən gözəl xüsusiyyətlərindən biridir..."







Ölkəmizdə gözdən əlil, yaxud zəif görən insanlara həssas yanaşılması hər kəsin vətəndaşlıq borcuna çevrilib. Onların cəmiyyətə inteqrasiyası üçün də müxtəlif növ tədbirlər həyata keçirilir. Bir sıra ictimai təşkilatların və cəmiyyətlərin bu istiqamətdə fəaliyyət göstərmələri heç də təsadüfi deyil. Belə təşkilatlardan biri də Azərbaycan Gözdən Əlillər Cəmiyyətidir. 2002-ci ildən fəaliyyət göstərən bu təşkilatın finksiyasını daşıyan bir qurum hələ 1931-ci ildə yaradılmışdı. Həmin cəmiyyətin tabeliyindəki Mərkəzi Respublika Korlar Kitabxanası isə 1981-ci ildən indiyədək neçə-neçə gözdən əlil gəncin cəmiyyətə inteqrasiyasına səbəb olub.

### Onların tibbi və sosial problemlərinin həllinə xüsusi qayğı göstərilir

Respublikamızın dilbər guşələrindən biri olan Qaxda dünyaya göz açmış, II qrup gözdən əlil, on dörd yaşından, yəni 1975-ci ildən Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin üzvü, milliyyətcə gürcü, şair-tərcüməçi Giya Paçxataşvili ilə söhbətimizdən məlum oldu ki, onlar üçün xüsusi dövlət proqramları fəaliyyət göstərir. Qarşıya çıxan sosial və tibbi problemlər aradan qaldırılır: "Son dövrlər əsaslı inkişaf yolu keçmiş ölkəmizdə dövlətin həyata keçirdiyi sosial, iqtisadi, mədəni siyasətin əsas prioritetləri sırasında məhdud fiziki imkanlı şəxslərə qayğı mühüm yer tutmaqdadır. Cəmiyyətimizin 20 min nəfərdən artıq üzvü var. 3 regional mərkəzi fəaliyyət göstərir. İndiyə kimi 300 nəfərədək gözdən əlil mənzillə təmin edilib. 1 saylı tibb kollecində gözdən əlillər üçün xüsusi masaj ixtisası açılıb. Artıq həmin ixtisasa yiyələnən məzunların sayı 20-dəkdir. Onların işlə təmin olunmalarında da problem yaşanmır. Xüsusi internat və musiqi məktəblərində oxuyan şagirdlər arasında Prezident təqaüdçüləri də var. Cəmiyyətimiz akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi ilə sıx əməkdaşlıq edir".

Yeri gəlmişkən yenicə işıq üzü görmüş "Sözlü-sehirli dünya-XIX" almanaxında 3 istedadlı gözdən əlil şairin də yaradıcılıq nümunələri yer alıb: "Almanaxın tərtibçisi, şair Elman İsrafiloğlu mənim, eləcə də gözdən əlil olsa da, könlünün bəsirət gözü ilə həyata nikbin baxışlarını ifadə edən Sahib Nağıyevin və Cəbrayıl rayonunun Kavdar kəndində doğulan, dünya işığından məhrum, Bakı şəhərindəki "Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli xüsusi internat məktəbi"nin və Bakı Dövlət Universitetinin məzunu Famil Hacısoyun da şeirlərini həmin kitabda oxuculara təqdim edib. Bir məsələni xüsusi qeyd etmək istərdim: vaxtilə Azərbaycan Korlar Cəmiyyətinin "Dan ulduzu" adlı mətbu orqanı var idi. Orada istedadlılarımız haqqında müntəzəm məqalələr dərc edilirdi. İctimaiyyət onların istedad və qabiliyyətləri haqqında bu qəzetdən məlumat ala bilirdi. Lakin son illər maliyyə imkansızlığından həmin qəzet öz fəaliyyətini dayandırdı. Xeyriyyə təşkilatlarından və iş adamlarından xahiş edərdik ki, bizim sıralarımızda olan istedadlıların cəmiyyətə inteqarasiya edilməsində vacib rol olan qəzetimizin fəaliyyətinin bərpasına yardım göstərsinlər".

### Dünyada zəif görənlərin orta yaşı 50-dən yuxarı olanlardır

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin bölmə rəhbəri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdiyeva dünya əhalisinin təxminən 40 milyonunun görmə zəifliyi ilə üzləşdiyi faktına onu da əlavə edərək deyir ki, xroniki korluğa aparan əsas səbəblər sırasına katarakta, qlaukoma, sarı nöqtənin degenerasiyası, buynuz qişasının tündləşməsi, traxoma və uşaqlarda A vitamininin çatışmazlığı daxildir: "Dünyada görmə problemindən əziyyət çəkənlərin əksəriyyətinin yaşı 50 və daha yuxarı olanlardır. 2020-ci ilə qədər görmə problemi ilə üzləşənlərin sayının minimuma endirilməsi və korluğun qarşısını 80 faiz azaltmaq uğrunda mübarizə aparılır..."







Ən diqqətçəkən məqamlardan biri Azərbaycan dövlətinin bu kateqoriyalı vətəndaşların problemlərinin həllinə xüsusi qayğı göstərməsidir. Məhz həmin diqqət və qayğının təzahürüdür ki, hər cür müasir tibbi avadanlıqlarla təchiz edilən, Qafqazda ən böyük oftalmoloji müəssisə ölkəmizdədir. Akademik Zərifə Əliyeva adına Milli Ofalmologiya Mərkəzinin bu sahədə apardığı məqsədyönlü işlər və gördüyü tədbirlərdən söz açarkən qeyd edilməlidir ki, 2005-ci ildən burada yaradılan səyyar klinikada 30 min nəfərdən artıq xəstə müayinədən keçirilib və onlardan 3 mininin üzərində uğurlu əməliyyatlar aparılıb. Bu klinikanın əməkdaşları həm paytaxt Bakıdakı bağça və məktəblərdə, həm də bölgələrdə, xüsusilə ucqar yaşayış məntəqələrində müayinələr aparırlar.

...Onlar görürlər, həm də çoxlarımızdan fərqli: könüllərinin, duyğularının, hisslərinin həssaslıqları ilə. Çalışaq ki, "ağ çəlik"lilərin həssas qəlblərinin həyat eşqi azalmasın...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Gözdən əlilliyi olan şəxslərin sosial müdafiəsi gücləndirilir

Dünyada 7 milyard insandan 300 milyonu müxtəlif göz problemlərindən, 40 milyondan çoxu isə korluqdan əziyyət çəkir. Bu rəqəm hər il 45 min artır.

Hər ilin bu günü Beynəlxalq Gözdən Əlillər günü kimi qeyd olunur. Bu təqvim ilk tiflopedaqoqlardan biri, görməyənlər üçün relyefli əlifbanın müəllifi, gözdən əlillər üçün ilk təhsil müəssisələrinin yaradıcısı, məşhur fransalı xeyriyyəçi Valentin Qayuinin doğum gününə təsadüf edir. O, 1784-cü ildə dünyada ilk dəfə Parisdə hökumətin və xeyriyyə cəmiyyətlərinin köməyi olmadan öz evində şəxsi vəsaiti hesabına kor uşaqlar üçün "işləyən korların emalatxanası"nı açıb. İlk dəfə həmin məktəbə kimsəsiz uşaqlar qəbul edilib. Özünün ciddi maddi çətinlik çəkməsinə baxmayaraq, Valentin Qayui mətbəə yaradaraq qabarıq-xətti şriftlə korlar üçün ilk kitablar çap edib.

1829-cu ildə isə Paris Milli İnstitutunun şagirdi Lui Brayl kor uşaqlar üçün nöqtə-relyef şriftinin universal sistemini hazırlayıb və bütün dünyada yayılıb.

### Bakıda gözdən əlilliyi olan şəxslər üçün çoxmənzilli bina inşa ediləcək

Hazırda Azərbaycanda 8963 nəfər 1-ci dərəcə, 4426 nəfər 2-ci və 2126 nəfər isə 3-cü dərəcə gözdən əlilliyi olan şəxslər var. Onlar digər həssas qrupdan olan şəxslər kimi, dövlətin sosial təminatı ilə əhatə olunublar. Azərbaycanda gözdən əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan işlərin bir istiqaməti də onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilib.

Prezident İlham Əliyevin 11 iyun 2019-cu il tarixli sərəncamı həmin kateqoriyadan olan vətəndaşların mənzillə təminatına xüsusi qayğının göstəricisi olmaqla, bu istiqamətdə növbəti addımın atılmasına imkan verib. Sərəncamda Bakı şəhərində gözdən əlilliyi olan şəxslər üçün inşa ediləcək çoxmənzilli binanın layihə-smeta sənədlərinin hazırlanması məqsədilə 300 min manat vəsait ayrılması nəzərdə tutulur. Cari ildə müvafiq layihə-smeta sənədlərinin hazırlanması işləri aparılmaqla, paytaxtda gözdən əlilliyi olan şəxslər üçün daha bir çoxmənzilli yaşayış binasının tikintisinə başlanacaq. Binada mənzillə təmin ediləcək gözdən əlilliyi olan şəxslərin rahatlığı üçün xüsusi layihə əsasında məişət şəraiti yaradılacaq. Onların əl və ayaqla hiss etmələrinin asanlaşdırılması məqsədilə müvafiq yerlərdə xüsusi tikinti materiallarından və işarələrdən istifadə olunacaq. Binanın tikintisinin gələn il ərzində yekunlaşdırılaraq istifadəyə verilməsi planlaşdırılır.

### Heydər Əliyev Fondunun layihəsi çərçivəsində regional informasiya mərkəzləri yaradılıb

Bundan əlavə, bu kateqoriyadan olan şəxslərin mənzillə təminatı proqramının davamı olaraq son illərdə Bakının Nərimanov rayonunda 132 mənzildən ibarət yaşayış binası tikilərək istifadəyə verilib. Gözdən əlilliyi olanların reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində atılan addımlardan biri kimi, Bakının Zabrat qəsəbəsində Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi yaradılıb. Heydər Əliyev Fondunun müvafiq layihəsi çərçivəsində respublikamızın ayrı-ayrı bölgələrində gözdən əlilliyi olanların və görmə qabiliyyəti zəif insanların İKT-dən istifadə imkanlarına malik olması üçün regional informasiya mərkəzləri fəaliyyət göstərir.

Gözdən əlilliyi olan şəxslər aylıq sosial müavinət və ya əmək pensiyası ilə təmin olunurlar. Həmin müavinət və ya əmək pensiyası ilə yanaşı, I qrup gözdən əlilliyi olanlara Prezidentin aylıq təqaüdü ödənilir. 15 aprel 2019-cu il tarixli fərmanla isə I qrup gözdən əlilliyi olanlara qulluq edənlər üçün aprelin 1-dən Prezidentin aylıq təqaüdü də təsis edilib. Pensiya qanunvericiliyində I qrup əlilliyi olanlar (o cümlədən gözdən əlilliyi olanlar) üçün tələb olunan sığorta stajı ilə bağlı, habelə pensiyanın hesablanmasında güzəştlər nəzərdə tutulub. Bu kateqoriyadan olanların məşğulluq imkanlarının və əmək bazarına çıxışının dəstəklənməsi məqsədilə də müvafiq işlər aparılır. Prezidentin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli sərəncamı görmə imkanları məhdud uşaqların sosial reabilitasiyalarının da genişləndirilməsinə şərait yaradıb. Sərəncamın icrası çərçivəsində həmin kateqoriyadan olan uşaqlar üçün də 2 sosial reabilitasiya mərkəzinin yaradılması nəzərdə tutulub.

### Görmə imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası

Bu mərkəzlər görmə imkanları məhdud uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyasına şərait yaradılması yönündə müxtəlif formalarda işlər aparacaq. Belə uşaqların mövcud potensiallarını, bacarıqlarını inkişaf etdirməklə, sərbəst yaşamaq imkanlarının artırılması, onlar üçün nəzərdə tutulan inklüziv təhsillərinin dəstəklənməsi və s. üçün sınanmış reabilitasiya metodlarından istifadə ediləcək. Həmçinin layihələr çərçivəsində görmə imkanları məhdud şəxslərin reabilitasiya yönümlü sosial xidmətlərlə təminatı işləri aparılır. Belə layihələrdən biri kimi, görmə imkanları məhdud uşaqlara müxtəlif əsərləri kompüter və telefon vasitəsilə dinləməyə imkan yaradan "Danışan kitab" saytı və onun mobil tətbiqi istifadəyə verilib. "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısının və əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi hazırlanıb. Layihədə əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin siyahısına yeni 23 növ reabilitasiya vasitəsi də əlavə edilib.

Yeni layihədə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı xüsusi fərqlənməklə sağlamlıq imkanlarını itirmiş (döyüş zamanı yaralanıb ətrafını itirmiş) əlilliyi olan şəxslərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi nəzərdə tutulur. Reabilitasiya vasitələri sırasına əlavə edilməsi nəzərdə tutulan vasitələrin sırasına göz protezləri, "danışan kitab" və s. daxildir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu keçirilib

Noyabrın 6-dan 8-dək ABŞ-da Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimovun rəhbərliyi ilə kənd təsərrüfatı şirkətlərinin və aqrar tədqiqat qurumlarının daxil olduğu geniş tərkibli nümayəndə heyəti, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və Birləşmiş Ştatların aparıcı kənd təsərrüfatı şirkətləri, beynəlxalq maliyyə institutları və müvafiq akademik dairələrin təmsilçiləri iştirak ediblər.

Forumun məqsədi ABŞ-ın iri kənd təsərrüfatı ştatlarından olan Oklahomanın aqrar sahədə fəaliyyət göstərən iş adamları ilə Azərbaycanın sahibkar və fermerləri arasında əməkdaşlıq yaratmaq, heyvandarlığın inkişafı, orta və iri fermer təsərrüfatlarının idarə olunması, məhsuldarlığın artırılması ilə bağlı aqrar sahədə tətbiq edilən yeni metodlarla tanışlıq, dənli və dənli-paxlalı bitkilərin müasir üsullarla becərilməsi məsələlərini müzakirə etməkdir.

Forum çərçivəsində Kənd Təsərrüfatı naziri İnam Kərimov Oklahoma ştatının qubernatoru Kevin Stittlə görüşüb. Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanları geniş müzakirə olunub. Nazir kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycanda həyata keçirilən aqrar islahatlar, kənd təsərrüfatı fəaliyyətinin vergidən azad edilməsi, kənd təsərrüfatı texnikası və damazlıq heyvan satışı bazarının liberallaşdırılması xarici şirkətlər, o cümlədən Oklahoma ştatının aqrar sahədə ixtisaslaşmış şirkətləri üçün geniş investisiya imkanları yaradır.

Oklahoma ştatının qubernatoru Kevin Stitt, öz növbəsində, Azərbaycan ilə Oklahoma ştatı arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Qubernator iki ölkə arasında kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şirkətlərin və akademik qurumların uğurla əməkdaşlıq edəcəyinə ümidvar olduğunu deyib.

ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov tədbirin təşkil edilməsində verdikləri dəstəyə görə forumun tərəfdaşlarına təşəkkürünü bildirib.

Forumda ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının həmsədri Reza Vəziri, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Administratorunun Avropa və Avrasiya üzrə müavininin köməkçisi Aleks Sokolovski, Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, Oklahoma ştatının qubernatoru Kevin Stitt, Oklahoma Milli Qvardiyasının rəhbəri, general-leytenant Maykl Tompson, Oklahoma konqresmeni Markueyn Mullin çıxış ediblər. Çıxışlarda Azərbaycanın qeyri-neft sektorunda, xüsusilə kənd təsərrüfatı sahəsində mövcud imkanlardan söz açılıb. Natiqlər Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) və Oklahoma Dövlət Universiteti arasında imzalanan Anlaşma Memorandumunun aqrar sahədə ikitərəfli əməkdaşlığın daha da genişlənməsində xüsusi rol oynayacağını bildiriblər. Qeyd olunub ki, Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu aqrar sahədə qarşılıqlı əməkdaşlıq imkanlarını araşdırmaq üçün əlverişli platformadır.

Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlardan danışaraq kənd təsərrüfatının qeyri-neft sektorunun inkişafında mühüm rola malik olduğunu qeyd edib, aqrar sahənin inkişafının ölkəmizdə prioritet olduğunu diqqətə çatdırıb. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyindən, bu istiqamətdə aparılan islahatlardan söz açan nazir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aqrar sektorun bütün sahələrinə xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb.

Forum Azərbaycanın Dövlət Bayrağı Gününə təsadüf etdiyinə görə təntənəli mərasim keçirilib. Əvvəlcə Azərbaycanın və ABŞ-ın dövlət bayraqları Oklahoma Milli Qvardiyasının fəxri qarovulu tərəfindən təntənəli şəkildə zala gətirilib, Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirilib. Sonra Oklahoma ştatının qubernatoru Kevin Stitt 9 noyabr tarixinin Oklahomada Azərbaycanın Dövlət Bayrağı Günü kimi qeyd olunmasını təsbit edən xüsusi Bəyannaməni Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimova və ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanova təqdim edib.

Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumunda ABŞ və Azərbaycan arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı ticarət və investisiyaların təşviqi perspektivləri müzakirə olunub.

Forum çərçivəsində keçirilən dörd sessiyada kənd təsərrüfatı sahəsində təhsil və bacarıqların artırılması, bu sahədə texniki peşə təhsilinin əhəmiyyəti, vergilər sahəsində keçirilən islahatlar, Azərbaycan hökuməti tərəfindən kənd təsərrüfatı sahəsində tətbiq edilən vergi güzəştləri, habelə aqrobiznes sahəsində innovativ texnologiyaların və metodların tətbiqi, kənd təsərrüfatının dayanıqlı inkişaf problemləri, yeni suvarma və süni mayalandırma üsulları, bu sahədə mövcud texnologiyalar barədə geniş müzakirələr aparılıb.

Oklahomanın şirkət təmsilçiləri öz qabaqcıl təcrübələri və texnologiyaları barədə təqdimatlar edib, Azərbaycanla əməkdaşlığı davam etdirmək niyyətini bildiriblər.

Sonra tədbir iştirakçıları üçün rəsmi qəbul təşkil olunub. Tədbirdə çıxış edən iştirakçılar Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumunun Azərbaycanla bu ştat arasında mövcud əlaqələri və əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əmin olduqlarını bildiriblər.

Daha sonra Gədəbəy şəhəri ilə Oklahoma ştatının Stilluater (Stillwater) şəhəri arasında qardaşlaşma və qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi Azərbaycan tərəfdən Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev və ABŞ tərəfdən Stilluater Şəhər Şurasının üzvü Emi Dzialovski imzalayıblar.

Qeyd edək ki, Birinci Oklahoma-Azərbaycan Kənd Təsərrüfatı Forumu Oklahoma Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı Departamenti, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi, ABŞ-ın Azərbaycandakı səfirliyi, Azərbaycanın Birləşmiş Ştatlardakı səfirliyi və Amerikanın Azərbaycandakı Ticarət Palatası ilə tərəfdaşlıq çərçivəsində Birləşmiş Ştatlar-Azərbaycan Ticarət Palatası (USACC), Oklahoma Ticarət Departamenti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycandakı missiyası ilə birgə təşkil edilib.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) forumun əsas informasiya təminatçısıdır.

# İƏT Nazirlər Şurasının qəbul etdiyi Antalya Kommünikesində Ermənistanın işğalçılıq siyasəti qətiyyətlə pislənib

Türkiyənin Antalya şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Nazirlər Şurasının 24-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Xarici İşlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti təmsil edib.

Əvvəlcə İƏT-in fəaliyyətini əks etdirən film nümayiş olunub.

Sonra Tacikistanın Xarici İşlər nazirinin müavini Xusrav Noziri və İƏT-in Baş katibi Hadi Süleymanpurun hesabat məruzələri dinlənilib. Təşkilatın 2018-2019-cu illəri əhatə edən fəaliyyəti barədə geniş məlumat verən məruzəçilər diqqətə çatdırıblar ki, üzv ölkələrin potensial imkanlarını səfərbər etmək üçün geniş imkanlar mövcuddur.

Məruzələrdən sonra təşkilata sədrlik Tacikistandan Türkiyəyə keçib. Bundan sonra iclası Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu aparıb. Təşkilatın geniş coğrafiyanı əhatə etdiyini diqqətə çatdıran nazir bildirib ki, Türkiyə tərəfi İƏT-in işini daha da canlandırmaq üçün üzv ölkələr və katibliklə əlaqələri daha da sıxlaşdıracaq. İƏT hədəflərinə çatmaq üçün imkanlardan daha səmərəli istifadə etməyi qarşısına məqsəd qoyub. Bunun üçün üzv ölkələr və katibliklə əməkdaşlıq daha da gücləndiriləcək, İƏT coğrafiyasındakı inkişaf imkanlarına dair dəyərləndirilmə aparılacaq.

Çıxışında Azərbaycanın liderliyi ilə həyata keçirilən layihələrin əhəmiyyətindən və ölkəmizin İƏT-dəki fəaliyyətindən danışan Xarici İşlər naziri Elmar Məmmədyarov bildirib ki, artıq Çin və Avropadan bir neçə logistika şirkətinin diqqətini cəlb edən Bakı-Tbilisi-Qars strateji dəmir yolu, Yeni Beynəlxalq Dəniz Ticarət Limanı, sərmayəçilər üçün əlverişli olan azad iqtisadi zonanın iddialı konsepsiyası ilə birlikdə, Çinin rəhbərlik etdiyi "Bir kəmər, bir yol" təşəbbüsü üçün orta dəhliz qismində trans-Xəzər Şərq-Qərb beynəlxalq nəqliyyat marşrutu, Əfqanıstanın potensialını açmaq üçün Lapis Lazuli ticarət yolu, həmçinin Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizləri bütün İƏT regionunun tranzit potensialının artırılmasına yönəlmiş əsas infrastruktur layihələridir. Bu marşrutların xəritəsinə baxsanız, bölgəmizdəki ticarət arteriyaları və damarları ilə bir-birinə bağlı olan şəbəkəni görə bilərsiniz. Bu, ticarətin asanlaşdırılması üzrə ambisiyamızdır.

Bütün sahələr üzrə regionun inkişafına mane olan Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini iştirakçıların diqqətinə çatdıran azərbaycanlı nazir deyib: "Antalya Kommünikesində də əks olunduğu kimi, hamımız etiraf etməliyik ki, İƏT bölgəsində həll olunmamış münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi bizim hərtərəfli əməkdaşlığımızın qarşısını alır. Mövcud olan təhdidedici reallıqlar yerindəcə həllini tapmalıdır ki, ölkələrimiz arasında daha çox əməkdaşlığa imkan yaransın. Həmçinin kommünikedə əks olunmuş digər mühüm bir müddəa mövcud münaqişələr və birgə təhdidlər də daxil olmaqla, bölgədəki digər təzyiqlərin qarşısını almağı nəzərdə tutur. Təəssüf ki, bu, sadəcə reallığın siyasi şəkildə əks olunması deyil, həmçinin bölgəmiz üçün iqtisadi imkanların itirilməsi deməkdir. Məsələn, əgər torpaqlarımız Ermənistan tərəfindən işğal olunmasaydı, o zaman İran və Naxçıvan arasında birbaşa dəmir yolu əlaqəmiz ola bilərdi".

İclasda üzv ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, eləcə də müşahidəçi statusu olan tərəflər və İƏT-in alt qurumlarının rəhbərləri çıxış ediblər.

İclasın qəbul etdiyi Antalya Kommünikesində qeyd olunur ki, Ermənistan bölgədə iqtisadi inkişafa maneə törədir, xüsusilə də Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməklə regionun iqtisadi potensialının azalmasına səbəb olur.

İclasdan sonra Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və İƏT-in Baş katibi Hadi Süleymanpur birgə mətbuat konfransı keçiriblər. İqtisadi Əməkdaşlıq Təşkilatının inkişaf potensialı və perspektivləri yüksək dəyərləndirilib. Jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, katibliyi Tehran şəhərində yerləşən İƏT 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə təsis olunub. Hazırda təşkilatın Azərbaycan, Türkiyə, Pakistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Əfqanıstan və İran daxil olmaqla doqquz üzvü var. 1992-ci ildən İƏT-in tamhüquqlu üzvü olan Azərbaycan təşkilatda ən fəal ölkələrdəndir.

# Azərbaycan UNESKO-nun Baş Konfransının 40-cı sessiyasının vitse-prezidenti seçilib

Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyasının prezidenti və vitse-prezidenti seçilib. AZƏRTAC xəbər verir ki, Türkiyə Baş Konfransın 40-cı sessiyasının prezidenti, Azərbaycan isə vitse-prezidenti seçilib. Baş konfrans öz işini noyabrın 27-dək davam etdirəcək.

# Gəncə və Şirvanda 32 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Gəncə şəhərində yeni yaşayış binasından alınmış 12, Şirvan şəhərində isə 20 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib. Gəncə şəhərində mənzillərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının rəhbəri Hidayət Abdullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Şirvan şəhərində isə nazirliyin Aparat rəhbərinin müavini Niyazi Rəhimov, şəhər icra hakimiyyəti başçısının müavini Məharət Mustafayev iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ictimai birliklərin və yerli ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi tədbirlərdə bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olanların ailələrinin və həmin döyüşlərdə sağlamlıqlarını itirərək əlil olan şəxslərin mənzillə təminatı ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı nəticəsində bu tədbirlər ildən-ilə gücləndirilir. Yeni yaşayış binasından mənzillər alınaraq, həmçinin fərdi yaşayış evləri inşa etdirilərək həmin kateqoriyalardan olan vətəndaşlara təqdim edilir. 2018-ci ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilibsə, bu il 934 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi planlaşdırılıb. Bu ilin ötən dövründə 246 mənzil artıq verilib. Bununla da indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 6900 mənzil təqdim edilib. Həmçinin müharibə əlillərinə ötən il 265 avtomobil verilib, bu il isə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobil verilməsi planlaşdırılıb. Onlara 427 avtomobil verilərək indiyədək həmin təbəqədən olanlara təqdim edilən avtomobillərin sayı 6400-ə çatıb.

Əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması sahəsində də bu il inqilabi addımlar atıldığı diqqətə çatdırılıb. Bu il reallaşan iki sosial paket nəticəsində minimum əməkhaqqının 2 dəfəyə yaxın, minimum pensiyanın 72,4 faiz, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırıldığı qeyd edilib. Şəhid ailələri və müharibə əlillərinin digər istiqamətlərdə də dövlət qayğısı ilə əhatə olunduqları vurğulanıb.

Yeni mənzillə təmin edilən vətəndaşlar şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, ümumən onların hərtərəfli təminatına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Paytaxt polisi: "Bakının mərkəzində qanunsuz piket keçirilməsi cəhdinin qarşısı alınıb"

Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) noyabrın 12-də paytaxtın mərkəzində qanunsuz piket keçirilməsinə cəhd göstərilməsi ilə bağlı məlumat yayıb.

BŞBPİ-nin AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, Müsavat Partiyasının üzvləri paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ediblər. Müraciətə uyğun olaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun müvafiq tələblərinə əsasən ictimai asayişin pozulmasının qarşısının alınması və şəhərin mərkəzi hissəsində keçirilməsi onun yerinin dəyişdirilməsi formasında məhdudlaşdırılaraq paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazası təklif olunub.

Bu barədə müraciətin müəlliflərinə rəsmi məlumat verilib və onlar müəyyən edilməmiş yerlərdə keçiriləcək hər hansı aksiyanın qarşısının alınacağı, baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən rəsmi xəbərdar ediliblər.

Buna baxmayaraq, noyabrın 12-də saat 15 radələrində ümumi sayı təxminən 15 nəfərdən ibarət qrup Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında qanunsuz piket keçirməyə cəhd göstərib. Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin qarşısı alınıb.

# Dövlət komitəsi: "Nərimanov rayonundakı qəzalı vəziyyətdə olan yataqxanada məskunlaşan ailələrin müvəqqəti yerləşdirilməsi istiqamətində iş aparılır"

Bakı şəhəri Nərimanov rayonu, Nazim Hacıyev küçəsi, 6 ünvanında yerləşən yataqxananın 4-cü mərtəbəsinin dam örtüyünün bir hissəsinin noyabrın 11-də çökməsi ilə əlaqədar Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri hadisə yerində olublar və hazırda həmin yataqxanada müvəqqəti məskunlaşmış 17 məcburi köçkün ailəsinin vəziyyəti ilə bağlı yerində araşdırma aparıblar.

AZƏRTAC xəbər verir ki, bu barədə komitənin mətbuat xidmətinin məlumatında bildirilir.

"Məlum olub ki, binanın dam örtüyünün çökən hissəsindəki yaşayış sahəsində məskunlaşmış şəxs əslən Cəbrayıl rayonundandır, lakin məcburi köçkün deyildir. Yataqxanada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrin heç birinə hadisə nəticəsində maddi ziyan dəyməyib.

Dövlət komitəsi yataqxana binasının qəzalı vəziyyətdə olmasını nəzərə alaraq, həmin ailələrin respublika ərazisində müxtəlif qəsəbələrdə, fövqəladə hallar üçün nəzərdə tutulmuş boş mənzil fondunda müvəqqəti yerləşdirilməsi istiqamətində iş aparır".

# Sahibkarlarla gömrük orqanları arasında Əməkdaşlıq Şurasının növbəti iclası keçirildi

Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Dövlət Gömrük Komitəsi arasında Əməkdaşlıq Şurasının növbəti iclası keçirilib. İclasda gömrük sahəsində aparılan islahatlar müzakirə edilib, sahibkarları narahat edən məsələlərə toxunulub və hər bir məsələ ilə bağlı konkret tapşırıqlar verilib.



İclası açan Dövlət Gömrük Komitəsinin sədr müavini İsmayıl Hüseynov ölkə rəhbərliyinin apardığı iqtisadi islahatların müsbət nəticəsi kimi artıq Azərbaycanda ixracatla məşğul olan iri holdinqlərin yarandığını vurğulayıb. "Bizim məqsədimiz dövlət qurumu olaraq administrativ qüvvədən tənzimləyici orqana çevrilməkdir" deyən sədr müavini son iki ildə gömrükdə şəffaflaşdırma və kadr islahatlarının aparıldığını, yüksək nəticələr əldə edildiyini xatırladıb. İ.Hüseynovun sözlərinə görə, gömrük orqanları büdcə proqnozlarına 100 faiz əməl edib və bunun özü şəffaflaşdırmanın, islahatların nəticəsidir: "Yaşıl Dəhliz" sistemindən istifadə edən sahibkarların sayı 500-ə çatıb və bu, etibarlı tərəfdaş, qanuna riayət edən sahibkarlar sinfinin, biznes mühitinin formalaşmasına səbəb olacaq".

ASK-ın vitse-prezidenti və Əməkdaşlıq Şurasında ASK-ı təmsil edən nümayəndə heyətinin rəhbəri Vüqar Abbasov bildirib ki, may ayında baş tutmuş görüşdən sonra sahibkarların qaldırdığı məsələlərin böyük əksəriyyəti öz həllini tapıb. ASK-a daxil olan müraciətlər əsasında Komitəyə ünvanlanan şikayətlərin həllinə göstərilən diqqətə görə V.Abbasov DGK-nın sədri Səfər Mehdiyev başda olmaqla bütün komandaya təşəkkür edib.

ASK-ın tərkibində fəaliyyət göstərən komissiyaların iclaslarında sahibkarların gömrüklə bağlı qaldırdığı məsələləri çatdırmaq üçün söz sahibkarlara verilib və iclas konstruktiv diskussiya şəklində davam etdirilib.

ASK-ın Nəqliyyat və logistika məsələləri ilə iş komissiyasının sədri Kamran Həbibov Azərbaycana gətirilən bütün malların gömrük ekspertizasına göndərilməsinə diqqət çəkib. Onun sözlərinə görə, bu laboratoriyanın həddən artıq yüklənməsi analizlərə çəkilən büdcə xərclərinin artması, sahibkarın isə yükünün sərhəddə ləngiməsi və hər gün üçün yüksək xərclər yaratması ilə nəticələnir. Bu prosesin sadələşdirilməsini təklif edən K.Həbibov sahibkarın müntəzəm olaraq gətirdiyi eyni malı hər dəfə ekspertizaya göndərməməyi xahiş etdi.

İ.Hüseynov qaldırılan problemə münasibətini "aktual məsələdir" deyə ifadə edərək, təkrar ekspertizaya göndərilmə hallarının monitorinqini aparmaq məqsədilə Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəis müavini Rauf Məmmədovla birlikdə prosedurların monitorinqinin keçirilməsi haqqında yerindəcə göstəriş verib.

Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi Təmkin Xəlilov gömrük prosedurlarının asanlaşdırılması ilə bağlı komitə sədrinin sərəncam imzaladığını və artıq hava nəqliyyatındakı gömrük postlarında belə əlavə pəncərələr yaradıldığını vurğuladı: "Gömrük inspektoru sistemdən həmin məhsulun 2 ay əvvəl ekspertizaya verildiyini görəcək və bu halda təkrar ekspertizaya göndərə bilməz. Buna sistem özü də yol verməyəcək" deyə məsələyə aydınlıq gətirib.

ASK Rəyasət Heyətinin üzvü, "Mətanət-A" şirkətinin rəhbəri Elxan Bəşirov hava nəqliyyatı ilə gətirilən malların "0" gömrük rüsumuna düşdüyü halda belə Beynəlxalq Hava Limanında müvafiq laborator imkanların olmadığı üçün sahibkarın ekspertizaya vaxt itirməmək xatirinə 5-15 faiz həcmində gömrük rüsumu ödəyib malı keçirdiyini bildirib. Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsinin rəisi Mirqasım Vahabov laboratoriyanın hava limanında da qurulmasının texniki baza sarıdan çətin olduğunu deyərək, "0" gömrük rüsumuna düşən mal üzrə sahibkarları rüsum ödəməməyə, bu məsələdə israrlı olmağa dəvət edib: "Sahibkar bir dəfə həmin mal üzrə ekspertiza rəyini alsın, həmin məhsulu təkrar gətirəndə artıq onun əlində müvafiq rəyi olacaq və sənədi göstərib heç bir rüsum ödəməsin. Biz sizin yanınızdayıq, hər cür dəstək verməyə hazırıq, prosesi birlikdə izləyək və harada nöqsan varsa, düzəldək".

ASK-ın üzvləri - Qablaşdırma Assosiasiyasının rəhbəri Rəşid Çulaqov, Mebelçilər Assosiasiyasının rəhbəri Məşhur Məmmədov, "Azərsun Holdinq"in nümayəndəsi Rafiq Şahverdiyev çıxış edərək DGK-nın internet resurslarının çalışmasında yaranan nöqsanlar, təmirə gedən avadanlıqların təkrar gətirilməsi zamanı yaşanan çətinliklər, Azərbaycanın ikinci sənaye şəhəri Sumqayıtda yük maşınları üçün parkinq problemi, bank hesablarından edilən ödənişlərin DGK-nın hesabında 2-3 gündən sonra görünməsi, saxta məhsulların bazarlara yol tapması, qısamüddətli bəyannamələr üzrə prosedurların icrası və cərimə haqlarının çox yüksək olmasına diqqət çəkiblər.

DGK-nın sədr müavini İsmayıl Hüseynov təmir üçün ölkədən çıxarılan avadanlıqlar gətirilərkən (əlavə detal quraşdırılmayan) heç bir gömrük rüsumu ödənilmədiyini, ödəmələrlə bağlı ani ödəniş sistemi üzərində iş getdiyini, cərimələrlə bağlı hədlərə yenidən baxılmasının vacibliyini qeyd edib.

İ.Hüseynov Azərbaycanda ÜDM-in 3 faiz artdığını vurğulayaraq, ölkə iqtisadiyyatının inkişafı üçün DGK-nın sahibkarların yanında olduğunu, bütün məsələlərin həllində əməkdaşlıq etməyə imkan yarandığını bildirib.

V.Abbasov görüşün çox yüksək səviyyədə, səmərəli şəkildə keçdiyi üçün sahibkarlar adından komitə rəhbərliyinə və görüş iştirakçılarına təşəkkürünü ifadə edərək, Azərbaycanda dayanıqlı iqtisadiyyatın payının yüksəlməsi, yeni iş yerlərinin açılması, şəffaf biznes mühitinin bərqərar olması üçün birlikdə atılan addımların daha yüksək nəticələr verəcəyini söyləyib.

Qeyd edək ki, gələn ilin birinci rübündə baş tutacaq növbəti iclas qaldırılan məsələlərin həlli vəziyyətinə və 2019-cu ilin yekunlarına həsr olunacaq.

***"Azərbaycan"***

---

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi publik hüquqi şəxs DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti Dəftərxana və təsərrüfat xərcləri təsnifatı üzrə malların satın alınması üçün

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə aparılır.

**LOT-1. Dəftərxana və təsərrüfat xərcləri təsnifatı üzrə malların satın alınması (221100 - Dəftərxana və təsərrüfat xərcləri)**

Tender iştirakçıları dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumat əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu portal vasitəsilə əldə edərək öz tender təkliflərini portal üzərindən təqdim edə bilərlər.

İştirak haqqı:
LOT-1. 130 manat

**Təşkilat: DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1305835261)**

**Hesablaşma hesabı: AZ90AIIB40060019440425072208**
**Bank: Kapital Bank ASC Sahil filialı**
**Kodu: 201218**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. bik: AIIBAZ2X**
**VÖEN (bank): 9900003611**

Ödənişlə əlaqədar əlavə informasiya - Tenderdə iştirak haqqı
İştirak haqqı heç bir halda qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən "Əsas şərtlər toplusu"nda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) və iş qrafikini **03 dekabr 2019-cu il tarixinə saat 11:00-dək**, tender təklifi və bank təminatını **11 dekabr 2019-cu il saat 18:00-dək** portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunmuş təkliflər portal vasitəsilə qəbul olunmayacaqdır.

İddiaçıların təklifləri **12 dekabr 2019-cu il saat 11:00-da** portal üzərindən açılacaqdır.

Əlaqələndirici şəxs: Məhəmməd Seyidəliyev
Telefon: 497-41-19; 051 207-59-19
E-mail: mahammad.seyidaliyev@sosial.gov.az
Ünvan: AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13

***Tender komissiyası***

---

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi publik hüquqi şəxs DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti İnventarın alınması təsnifatı üzrə inventarların satın alınması üçün

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə aparılır.

**LOT-1. İnventarın alınması təsnifatı üzrə inventarların satın alınması (225411 - İnventarın alınması)**

Tender iştirakçıları dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumat əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu portal vasitəsilə əldə edərək öz tender təkliflərini portal üzərindən təqdim edə bilərlər.

İştirak haqqı:
LOT-1. 80 manat
**Təşkilat: DOST İş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1305835261)**
**Hesablaşma hesabı: AZ90AIIB40060019440425072208**
**Bank: Kapital Bank ASC Sahil filialı**
**Kodu: 201218**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. bik: AIIBAZ2X**
**VÖEN (bank): 9900003611**

Ödənişlə əlaqədar əlavə informasiya - Tenderdə iştirak haqqı

İştirak haqqı heç bir halda qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən "Əsas şərtlər toplusu"nda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) və iş qrafikini **03 dekabr 2019-cu il tarixinə saat 11:00-dək**, tender təklifi və bank təminatını **11 dekabr 2019-cu il saat 18:00-dək** portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunmuş təkliflər portal vasitəsilə qəbul olunmayacaqdır.

İddiaçıların təklifləri **12 dekabr 2019-cu il saat 11:00-da** portal üzərindən açılacaqdır.

Əlaqələndirici şəxs: Məhəmməd Seyidəliyev
Telefon: 497-41-19; 051 207-59-19
E-mail: mahammad.seyidaliyev@sosial.gov.az
Ünvan: AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13

***Tender komissiyası***

---

Azercell

## abunəçilərinin nəzərinə

13 dekabr 2019-cu il tarixindən etibarən rominq xidməti çərçivəsində təqdim edilən Rominq Danışıq Paketinə qoşulma dayandırılacaq. Həmin tarixədək paketə qoşulmuş abunəçilər istifadə müddətinin sonunadək müvafiq paketdən yararlana biləcəklər. Abunəçilər göstərilən dəyişikliklər, rominq xidmətinin aktivləşməsi, dayandırılması, Rominqdə Mobil İnternet Paketlərinin sifarişi, istifadəsi və digər şərtlər barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

---

## D Ü Z Ə L İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhəri Nizami rayonunda yeni açılacaq DOST mərkəzi üçün malların (işlərin, xidmətlərin) satın alınması ilə əlaqədar "Azərbaycan" qəzetinin 2019-cu il 09 noyabr tarixli sayında dərc edilmiş təkliflər sorğusu elanında göstərilmiş tender zərflərinin açılış tarixi 2019-cu il 15 noyabr saat 16:00 kimi oxunsun.

***Tender komissiyası***

---

## "Bakı Metropoliteni" QSC müxtəlif növ şüşələrin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumat əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Müxtəlif növ şüşələrin satın alınması**

**İştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03 dekabr 2019-cu il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **11 dekabr 2019-cu il saat 16:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri **12 dekabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***



Noyabrın 9-da Göyçayda möhtəşəm bayram təntənəsi yaşanıb. 30 mindən çox iştirakçının qatıldığı bu təntənəli bayramda Dövlət Bayrağı Günü və XIV Nar festivalı öz rəngarəngliyi, möhtəşəmliyi ilə yerli və xarici qonaqların, ümumən hər kəsin böyük marağına səbəb olub. Şənliklərdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrin, beynəlxalq təşkilatların və diaspor təşkilatlarının nümayəndələri, yerli və xarici iş adamları, Azərbaycanın şəhər və rayonlarından gələn çoxsaylı qonaqlar iştirak ediblər.



# Göyçayda möhtəşəm Nar festivalı

AZƏRTAC xəbər verir ki, səhər saatlarında rayon rəhbərləri və qonaqlar bayramsayağı bəzədilən Heydər Əliyev parkına gələrək Ümummilli Liderin abidəsini ziyarət edib, önünə çiçəklər düzüblər. Sonra festival iştirakçıları parkdakı Bayraq meydanına gəliblər. Burada onlar şən mahnıları, milli geyimli rəqqasların çıxışlarını maraqla izləyiblər. Gurultulu alqışlar altında eni 9, uzunluğu 18 metr olan üçrəngli bayrağımız 66 metr hündürlüyə ucaldılaraq dalğalandırılıb. Sonra qonaqlar Bayraq muzeyinə gəliblər. Onlara nümayiş etdirilən Azərbaycanın müasir, orta əsrlər və qədim dövrlərinə dair bayraqları, milli döyüş geyimləri və digər eksponatlar barədə məlumat verilib.

Heydər Əliyev prospektinin başlanğıcında Nar festivalının açılışı olub. Milli geyimli qızlar qonaqlara nar şirəsi və döş nişanları təqdim ediblər. Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə qonaqları və digər iştirakçıları salamlayıb, Göyçayda bu gün bayramın bayrama qarışdığını, Dövlət Bayrağı Gününün qeyd olunduğunu və gözəllik, məhəbbət, ruzi-bərəkət nişanəsi olan, artıq ənənəyə çevrilən Nar festivalının keçirildiyini söyləyərək əlamətdar günlər münasibətilə hər kəsi təbrik edib. Vurğulayıb ki, bu gün Göyçay üçün ənənəvi sayılan və iqtisadi baxımdan faydalı olan narçılığın inkişafı uğurla reallaşdırılır.

Sonra qonaqlar rayonun ayrı-ayrı icra nümayəndəliklərinin sakinləri tərəfindən təşkil edilən nar və nar məhsullarının sərgisi ilə tanış olublar. Sərgi masalarında onlara nardan hazırlanan məhsullar, o cümlədən nardança, nar şərabı, nar şirəsi, nar mürəbbəsi, habelə milli mətbəximizin bənzərsiz nümunələri olan döşəməli plov, təndir çörəyi, yuxa, kətə və müxtəlif şirniyyatlar təqdim olunub.

Tədbirin keçirildiyi yerlərdə suvenirlərin, yeməklərin, şirniyyat məhsullarının, çay və alkoqolsuz içkilərin satışı təşkil edilib.

Milli folklor qruplarının çıxışları, ayrı-ayrı şirkətlərin məhsullarının sərgisi, müsabiqələr, modalar nümayişi və digər tədbirlər bayrama xüsusi təravət verib. Qonaqların iştirakı ilə Qızılağac kəndindən olan iki gəncin - Nahid və Gültən Qasımovların nikah mərasimi keçirilib.

Göyçayda nar bayramı artıq 14-cü dəfədir ki, təşkil edilir. Bu məhsul bayramı bölgədə meyvəçiliyin və turizmin inkişafı baxımından böyük əhəmiyyət daşıyır. İstər yerli əhalinin, istərsə də ölkəmizə gələn qonaqların böyük marağına səbəb olan nar bayramı, həm də xalqımızın milli adət-ənənələrimizə dərin bağlılığının bir nümunəsidir.

Hazırda rayonda 3627 hektar nar bağı vardır ki, onun da 3327 hektarı bar verəndir. Hər il orta hesabla 35-40 min ton nar istehsal olunur. Bağlarda əsasən "Gülövşə", "Vələs", "Şəndi", "Şirin", "Bala Mürsəl" sortları yetişdirilir. İstehsal olunan narın yarıdan çoxu xarici bazarlara, əsasən Rusiya, Ukrayna və Gürcüstan bazarlarına çıxarılır.

Günün ikinci yarısında şəhər stadionunda bayram konserti olub.

Festival noyabrın 10-dək davam edib. Həmin gün nar və nar məhsullarının satış-yarmarkaları da təşkil olunub.

# Müştəri məmnuniyyəti istiqamətində "Azercell"dən yeniliklər

"Azercell Telekom" MMC abunəçilərini innovativ xidmətlər və maraqlı məzmun təklifləri ilə təmin etməklə yanaşı, mütəmadi olaraq müştəri məmnuniyyətinin artırılması istiqamətində müvafiq layihələr həyata keçirir.

Daim istifadəçilərinin istəklərini öndə tutan "Azercell", bu dəfə 3-cü tərəf şirkətlər ilə əməkdaşlıq siyasətində bir sıra dəyişikliklər edib. Lider operator 3-cü tərəf şirkətlərin fəaliyyətinin keyfiyyət və şəffaflığını yoxlamaq məqsədilə mütəmadi şəkildə apardığı araşdırmaların nəticələrindən irəli gələrək şirkətin tələblərini qarşılamayan bir sıra məzmun təminatçısı ilə əməkdaşlığa xitam verib.

Xatırladaq ki, hələ 2017-ci ilin oktyabr ayından başlayaraq təsadüfi qoşulmaların qabağını almaq məqsədilə "Azercell" istifadəçiləri 3-cü tərəf şirkətlərin təqdim etdiyi müvafiq xidmətə abunə olmaq üçün ilk öncə "landing page" - xüsusi keçid səhifəsinə yönləndirilir və sorğularını mobil nömrələrini daxil edərək təsdiqləyirlər. Bu il noyabr ayının 12-dən etibarən isə "Azercell" İnteraktiv Səsli Cavablama Xidməti (IVR) üzərindən nömrədə mövcud abunəlik xidmətləri haqqında məlumat almaq və onlardan imtina etmək mümkünlüyünü də təmin edəcək. Bunun üçün *1111 nömrəsinə zəng edərək operator ilə əlaqə saxlamadan, "Abunəlik xidmətləri ilə bağlı" bölümü seçilməlidir.

"Azercell Telekom" MMC abunəçilərini yüksək keyfiyyətli rabitə xidmətləri ilə təmin etmək və onlara ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyərək bu istiqamətdə fəaliyyətini tam gücü ilə davam etdirəcək.

***"Azərbaycan"***

# "Ölkəmizi tanıyaq": növbəti maarifləndirici tur-aksiya başlayır

## Budəfəki tədbirlərdə 3190 nəfər iştirak edəcək

Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur.



Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla, 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 11 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə 26 min 814 nəfər iştirak edib.

Noyabrın 13-16 və 18-21 tarixlərini əhatə edəcək növbəti - 12-ci tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə 3190 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 30 mindən çox olacaq.

*(İnformasiya ilə daha ətraflı www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz)*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## "Azərsu" ASC

daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə "Azərsu" ASC-nin 2019-cu il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmış maliyyə hesabatlarının audit olunması xidmətlərinin satın alınması ilə bağlı

***açıq tender elan edir***

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, təcrübəli işçi heyət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, lisenziyası, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04.12.2019-cu il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə **12.12. 2019-cu il saat 16:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **13.12.2019-cu il saat 15:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala və Masallı Sənaye məhəllələrinin qaz xətlərinə texniki baxışın və texniki xidmətin keçirilməsi ilə bağlı görüləcək işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 19.11.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## bakcell abunəçilərinin nəzərinə

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, 22 noyabr 2019-cu il tarixdən etibarən şirkətin "Business" tariflərinin fərdi müştərilərinə təklif olunan 1GB, 5GB, 10GB, 20 GB və 50 GB internet paketlərinin qiyməti müvafiq olaraq 4 AZN, 8 AZN, 12 AZN, 19 AZN, 24 AZN təşkil edəcək. Müvafiq internet paketi çərçivəsində təqdim olunan internet trafiki bitdikdən sonra isə hər 250 MB-ın qiyməti 1 AZN təşkil edəcək.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Prokurorluqda İstintaqa Nəzarət İdarəsinin prokuroru Fuad Tağıyevə atası

**NAZİM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Arzuman Abbasov ailəsi ilə birlikdə Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Psixologiya kafedrası və Eksperimental psixologiya ETL-nin əməkdaşları Sevinc Quliyevaya atası

**YƏHYA ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

M.Ə.Əfəndiyev adına 2 №-li Şəhər Klinik Xəstəxanasının kollektivi Otorinolarinqologiya şöbəsinin müdiri Elxan Məmmədova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Əməkdar memar Elxan Əsədova anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Əməkdar memar Elxan Əsədova anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəki Ağır Cinayətlər Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Xətai Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Dövlət Universitetinin rəhbərliyi və kollektivi Təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti

**YƏHYA ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı

**ƏLƏSGƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hadi Rəcəbli və Hüseynbala Mirələmov Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlıya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Hüseyn Mövsümova, Aqiyə, Mahir və Yusif Naxçıvanlılara əzizləri

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Rafiq Aslanov Tağıyevlər ailəsinə Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağsu Rayon Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8902
Sifariş 3823
Qiyməti 40 qəpik